# ELMİ TƏDQİQAT

Beynəlxalq onlayn elmi jurnal

# SCIENTIFIC RESEARCH

International online scientific journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## VI ELMİ QAYNAQLAR

## TEZİSLƏR TOPLUSU

## VI COLLECTION OF THESES ON

## SCIENTIFIC SOURCES

# ELMİ TƏDQİQAT

**Beynəlxalq onlayn elmi jurnal**
**İmpakt Faktor: 0.864**

# VI ELMİ QAYNAQLAR

## Tezislər toplusu

DOI: https://doi.org/10.36719/2023/VI

# SCIENTIFIC RESEARCH

**International online scientific journal**
**Impact Factor: 0.864**

## VI Collection of Theses on

# SCIENTIFIC SOURCES

**Bakı – Baku**
**2023**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

On 01.03.2021, the journal
was included in the register
of Press publications of the
Ministry of Justice of the
Azerbaijan Republic
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Metbuat Avenue, 529,
"Azerbaijan" Publish House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tezis.tedqiqat@aem.az

## Beynəlxalq indekslər / International indices

**e-ISSN: 2789-6910**
**DOI: 10.36719**

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV,** Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan

## Editor

**Assoc. Prof. Dr. Ilham MAMMADLI,** ANAS Institute of Literature / Azerbaijan

## Redaktor köməkçisi

**Magistrant Aytən XƏLİLOVA,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan

## Assistant editor

**Master Aytan KHALILOVA,** Azerbaijan Science Center / Azerbaijan

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Abbas ABBASOV** / Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA** / Azərbaycan Dillər Universiteti / Azərbaycan

## Language editors

**Prof. Dr. Abbas ABBASOV** / Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA** / Azerbaijan Universty of Language / Azerbaijan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Şəhla SƏMƏDOVA /** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV /** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV /** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA /** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA /** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV /** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV /** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Dr. Fuad RZAYEV /** Azərbaycan Tibb Universiteti / Azərbaycan

## Editors in scientific fields

**Prof. Dr. Shahla SAMADOVA /** Baku State University/ Azerbaijan
**Prof. Dr. Ali ZALOV /** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV /** Baku State University/ Azerbaijan
**Assoc.Prof.Dr. Khatira HUSEYNOVA /** Baku State University/ Azerbaijan
**Assoc. Prof. Dr.Elza ORUJOVA /** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV /** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV /** Azerbaijan State Agrarian University / Azerbaijan
**Dr. Fuad RZAYEV /** Azerbaijan Medical University / Azerbaijan

## REDAKSİYA HEYƏTİ

### Humanitar və ictimai elmlər bölməsi

**Prof. Dr. NərgizAXUNDOVA**, AMEATarix İnstitutu / Azərbaycan
**Prof. Dr. Yerden KAJIBEK,** Qazax dili Akademiyası / Qazaxıstan
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Uuganbayar MYAGMARSUREN,** Monqolustan Dövlət Universiteti / Monqolustan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Svetlana KOJIROVA,** L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Masumə DAEİ**, Təbriz Payame Noor Universiteti / İran İslam Respublikası
**Prof. Dr. Şəhla SƏMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA,** Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Cihan ÖZDEMİR,** Biləcik Şeyx Edəbali Üniversiteti / Türkiyə
**Prof. Dr. Müseyib İLYASOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Kulaş MAMİROVA**, Qazaxıstan Milli Qadın Pedaqoji Univeristeti / Qazaxıstan **Assoc. Prof. Dr. Andrey RAGULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya **Assoc. Prof. Dr. Elza ALIŞOVA**, Girne Amerika Universiteti / Türkiyə
**Assoc. Prof. Dr. Dürdanə MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Gülnoz SATTOROVA**, ÖREA Özbək Dili, Ədəbiyyatı və Folkloru İnstitutu / Özbəkistan
**Assoc. Prof. Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Afərin ABBASOVA**, Qərbi Kaspi Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şəfəq ABDULLAYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlkin QULUSOY**, Qafqaz Universiteti / Türkiyə
**Assoc. Prof. Dr.Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə

## Təbiət elmləri bölməsi

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof.Dr. İlham ŞAHMURADOV**, AMEA Botanika İnstitutu / Azərbaycan
**Prof. Dr. Zöhrab QARAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. İlham KAZIMOV**, M.Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi / Azərbaycan
**Prof. Dr. İbadulla AĞAYEV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Prof. Dr. Elxan NURİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mahir HACIYEV**, Heyvandarlıq Elmi-Tedqiqat institutu / Azərbaycan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. RamizƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytəkin AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Zaman MEMMEDOV**, AMEA Torpaqşünaslıq və Aqrokimya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Busra BILAL,** Ali Jinnah Universiteti / Pakistan İslam Respublikası
**Dr. Asif MANAFOV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Dr. Xanzoda YULDAŞEVA**, Tibb İşçilərinin Peşə Kvalifikasiyasının İnkişafı Mərkəzi / Özbəkistan
**Dr. Svetlana QORNOVSKAYA,** Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Fuad RZAYEV**, AMEA Zoologiya İnstitutu / Azərbaycan

## Dəqiq elmlər bölməsi

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV,** Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Maarif CƏFƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Tərxan CƏBRAYILOV**, Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## Texnika elmləri bölməsi

**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO**, Ümumrusiya Metroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Assoc. Prof. Dr. Zəfər CƏFƏROV**, Azərbaycan Dövlət Memarlıq və İnşaat Universiteti / Azərbaycan

## EDITORIAL BOARD

### Humanities and social sciences section

**Prof. Dr. Nargiz AKHUNDOVA**, Institute of History of ANAS / Azerbaijan
**Prof. Dr. Erden KAJIBEK,** Kazakh Language Academy/ Kazakhstan
**Prof. Dr. Irina KREIDYCH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAWA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Uugunbayar MYAGMARSUREN,** Mongolian State University / Mongolia
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr.Svetlana KOJIROVA,** L.N. Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University of Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahla SAMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA,** Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Cihan OZDEMIR**, Bilecik Sheykh Edebali University / Turkey
**Prof. Dr. Museyib ILYASOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Kulash MAMIROVA**, Kazakhstan National Woman Pedogogical Institute / Kazakhstan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Elza ALISHOVA**, Girne American University / Turkey
**Assoc. Prof. Dr. Durdana MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Gulnoz SATTOROVA**, ASRU Uzbek Language, Institute of Literatureand Folklore/ Uzbekistan
**Assoc. Prof. Dr. Rashad HUSEYNOV**, Khazar University / Azerbaijan
**Assoc. Prof. Dr. Afarin ABBASOVA,** Western Caspian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shefeg ABDULLAYEVA**, Azerbaijan Universty of Language / Azerbaijan
**Assoc. Prof. Dr. İlkin GULUSOY,** Kafkas University / Turkey
**Assoc. Prof. Dr.Garanfil GULIYEVA,** Baku State University / Azerbaijan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Rovshan RAMIZOGLU**, Seljuk University / Turkey

### Natural sciences section

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University/ Turkey
**Prof. Dr. Nikolai BRICO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Duygu KILIC**, Amasya University / Turkey
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof. Dr. Zohrab GARAYEV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Ilham KAZIMOV**, Scientific Surgery Center named after M.Topchubashov / Azerbaijan
**Prof. Dr. Ibadulla AGAYEV**, Azerbaijan Medical University / Azerbaijan

**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Elkhan NURIYEV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANY**, University of Texas at Tyler / USA
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shikar AHMADOV**, Agricultural Scientific Research Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Mahir HAJIYEV**, Cattle-breeding Scientific research institute / Azerbaijan
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytekin AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Zaman MAMMADOV**, Institute of Soil Science and Agro Chemstry of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Bushra BILAL,** Ali Jinnah University / İslamic Republic of Pakistan
**Dr. Asif MANAFOV**, Institute of Zoology of ANAS / Azerbaijan
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan
**Dr. Khanzoda YULDASHEVA**, Center for Professional Development of Medical Workers / Uzbekistan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Fuad RZAYEV**, Zoology Institute of ANAS / Azerbaijan

## Exact sciences section

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Eldar MASIMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Maarif JAFAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tarkhan DJABRAYILOV**, Azerbaijan Architecture and Construction University / Azerbaijan

## Technical sciences section

**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO**, All-Russian Metrological Service Research Institute / Russia
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Assoc. Prof. Dr. Zafar JAFAROV**, Azerbaijan State University of Architecture and Construction / Azerbaijan

DOI: https://doi.org/10.36719/2023/VI

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Ağasəmid İsayev**
V.Y.Axundov adına Elmi-Tədqiqat
Tibbi Profilaktika İnstitutu
Tibb elmləri doktoru
agasamed_isayev@mail.ru
**Sevinc Sadiqova**
V.Y.Axundov adına Elmi-Tədqiqat
Tibbi Profilaktika İnstitutu
dr.sevincsadigova@gmail.com
**İradə Nağıyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat
Tibbi Profilaktika İnstitutu
iradanagiyeva1978@gmail.com
**Salatın Bəxtiyarova**
V.Y.Axundov adına Elmi-Tədqiqat
Tibbi Profilaktika İnstitutu
salatinbaxtiyarova@gmail.com

## İÇMƏLİ SUYUN KİMYƏVİ VƏ EPİDEMİOLOJİ TƏHLÜKƏSİZLİK GÖSTƏRİCİLƏRİ VƏ ONLARIN GİGİYENİK ƏSASLANDIRILMASINA DAİR

***Açar sözlər:*** *içməli su, keyfiyyət, sağlamlıq, riskin qiymətləndirilməsi, metod, inteqral*

***Keywords:*** *drinking water, quality, health, risk assessement, method, integral*

DOI: https://doi.org/10.36719/2023/VI

İçməli suyun keyfiyyətinin yaxşılaşdırılması məqsədilə çoxsayı tədbirlər planının hazırlanması və həyata keçirilməsinə baxmayaraq hələ də su təchizatı mənbələrinin nəzərəçarpacaq dərəcədə çirklənməsi halları müşahidə olunmaqdadır. Bu halda dezinfeksiya olunmuş su həmişə insan sağlamlığı üçün təhlükəsiz və zərərsiz ola bilməz. Ona görə də suyun genişmiqyaslı və elmi cəhətdən hərtərəfli əsaslandırılmış metodlardan istifadə etməklə təmizlənməsinə ehtiyac yaranır. Çünki içməli suyun keyfiyyətini sanitar normativlərə uyğun artırmaq üçün su təsərrüfatı işçilərinə və gigiyenistlərə hansı metodlardan istifadə etməyi bilmək vacibdir.

Uzunmüddətli təcrübələr göstərmişdir ki, içməli suyun keyfiyyətini artırmaq məqsədilə istifadə olunan metodlar arasında suyun keyfiyyətinin inteqral qiymətləndirilməsi metodu daha məqsədəuyğundur. Çünki həmin metod kimyəvi maddələrin və onların birləşmələrinin, eləcə də mikrobioloji amillərin suyun keyfiyyəti üçün yarada biləcəyi riskin səviyyəsini müəyyən etmək və əlaqələndirmək imkanına malik metodlardan biridir. Bu metod sağlamlıq riskinin metodologiyası, metodik göstərişlər, müqayisəli təhlil, ümumiləşdirmə və modelləşdirmə prinsiplərinə əsaslanaraq suyun tərkibi və xassələrini özündə əks etdirən keyfiyyət indeksinə uyğun həyata keçirilir.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 10-14
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 10-14
DOI: https://doi.org/10.36719/2023/VI

**Elçin Allahverdiyev**
Bakı Dövlət Universiteti
Magistrant
elçin583@mail.ru

# BİZNES FƏALİYYƏTİNDƏ VERGİ NƏZARƏTİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *vergi nəzarəti, maliyyə mexanizmi, vergi idarəçiliyi , vergi sistemi, biznes*

***Keywords:*** *tax control, financial mechanism, tax administration, tax system, business*

İqtisadi inkişafın hazırkı mərhələsində təsərrüfat fəaliyyətinin səmərəli həyata keçirilməsi və dayanıqlı inkişafının xeyli dərəcədə təmin edilməsi biznes sahəsində vergi nəzarəti mexanizmlərinin uğurlu tətbiqindən, vəzifə və məqsədlərin müəyyən edilməsindən, xarici və daxili mühitin tədqiq olunmasından, baş verən dəyişikliklərin araşdırılmasından, alternativ strategiyaların seçilməsindən və reallaşdırılmasından asılıdır. Ölkəmizdə bazar iqtisadiyyatı münasibətlərinin bərqərar olması və dünya təsərrüfat sisteminə inteqrasiya prosesinin gücləndiyi, habelə maliyyə-sisteminin möhkəmləndirilməsinin aparıcı yer aldığı dovlət siyasətində müasir məqamda idarəetmənin başlıca elementi hesab edilən bu nəzarət növünün rolu getdikcə önəmli yer tutur .

İqtisadi arenada baş verən planlaşdırılmayan mənfi proseslər öz-özünə tənzimlənmədiyindən cəmiyyətdəki reallıqları ehtiva edən iqtisadi-sosial həyat tərzində xoşagəlməz problemli məsələlər ortaya çıxır və belə olan vəziyyətdə dövlət səmtindən görülən önləyici iqtisadi nizamlama mexanizminin reallaşması çətinləşir. Bununla paralel hesab edilən məsələləri, müasir cəmiyyətin iqtisadi tərəqqisinə maneçilik törədən

DOI: https://doi.org/10.36719/2023/VI

xoşagəlməz halları məqamında çözə bilmək bacarığına məxsus işlək vergi nəzarətinin yaradılması tələbi meydana çıxır. Büdcə gəlirlərinin formalaşması prosesində başlıca mənbələrdən hesab edilən vergi yığımları əhəmiyyətli tərzdə vergi ödəyicilərinin qayda-qanunlara hörmətlə yanaşması, onların qanunvericilikdən doğan tələblərə ciddi riayət etməsi səviyyəsindən bilavasitə asılıdır. Vergi nəzarətinin yoxluğu, habelə onun səmərəlilik dərəcəsinin nisbətən zəifliyi durumunda vergi ödəyiciləri tərəfdən vergi öhdəliklərinin tam miqdarda və məqamında yerinə yetirilməsi heç də inandırıcı görünmür.

K.Belskinin apardığı tədqiqatlar yekununda gəldiyi qənaətə əsasən, vergi sistemi dedikdə - vergitutma sahəsində bəlli prinsiplərə söykənən bir-biri ilə qarşılıqlı bağlı elementlərin (hissələrin), iş adamlarının vergi ödəmə bacarığının, vergi və yığımların qanunda nəzərdə tutulmuş sisteminin, vergi inzibatçılığı və dövlət istiqamətində tətbiqi reallaşdırılan vergitutma metodlarının bütöv toplusu dərk edilir (Belskiy, 2006: 56).

M. Karaseva isə bundan fərqli yanaşma tərzi ilə vergi strukturuna dövlətin vergitutma sferasında iqtisadi, siyasi, təşkilati və konstitusiya xarakterli bütün cari ictimai əlaqələrin məcmusu şəklində aydınlıq ortaya qoyur (Karaseva, 2011: 617).

İqtisadi sferada dövlət funksiyalarını gerçəkləşdirməkdən ötrü çox zaman ən effektiv alət şəklində qəbul edilən vergi yoxlamaları əsas prioritetdir. Bu məqamı isə aşkarlıq, reallıq kimi şərh etmək olar. Dövlət ölkədə cərəyan edən bütün önəmli sosial-iqtisadi proseslərə nəzarəti reallaşdırır və onları konkret istiqamətə yönəldir. Strateji Yol Xəritəsində öz əksini tapan hədəfə alınmış dörd strateji məqsədin əsas özəyi respublikamızda fiskal stabilliyin təminat prosesi və monetar siyasətə gəldikdə üzən məzənnə rejiminə üstünlük tədqim

DOI: https://doi.org/10.36719/2023/VI

edilməsidir ki, bu siyasətlərin qarşılıqlı tərzdə əlaqələndirilməsi yekununda iqtisadi sferada makroiqtisadi dayanıqlıq əlçatan olacaq. Bəlli olduğu qaydada fiskal və həmçinin monetar siyasətin ana xəttində maliyyə, vergi, gömrük əsas rol oynadığından bu sahələrə nəzarət tədbirlərinin təkmilləşdirilməsi aktual məsələ olaraq irəli çəkilmişdir.

Beləliklə, vergi nəzarəti bir tərəfdən lazımi maliyyə ehtiyatlarının dövlət büdcəsinə tələb olunan vaxtda daxil olunmasını reallaşdırır, digər prizmadan isə vergi ödəyicilərinin intizamlı davranışına nəzarəti gerçəkləşdirir. Vergi nəzarəti dövlətin səlahiyyət daşıyan orqanlarının tam və hədəfyönlü işini özündə ehtiva edən vergitutma sahəsində mövcud qanunvericiliyin tələblərinə söykənir və rezidentlərin vergi öhdəliklərinə dair tələblərinin icrası ilə əlaqədar məlumatların yığılması və analizinə istiqamətlənib. Bu tip nəzarətin ali məqsədi vergi qanunvericiliyində yol verilmiş pozuntuların çevik aşkarlanması, onların qarşısına qətiyyətlə sədd çəkilməsi və bunun yekununda bütöv biznes subyektlərindən ötrü bərabərliyi və ədaləti özündə təcəssüm edən münasib vergi mühitinin formalaşdırılmasıdır .

Araşdırma apardığımız mexanizmlərin içərisində vergi idarəçiliyi başlıca təşkiledicilərdən biri hesab edilir. Vergi idarəçiliyi dedikdə vergi münasibətlərinin dövlət istiqamətdən idarə olunması sistemi nəzər dairəsində saxlanılır (Rzayev, Xəlilov, 2008: 111). Vergi nəzarəti effektiv vergi idarəçiliyinin önəmli vasitələrindən biridir - desək, yanlışlığa yol verməri̇k. Onun başlıca hədəfi vergidən yayınma hallarının qarşısına sipər çəkmək və büdcə gəlirlərinin stabil daxilolmasının təmininə yiyələnməkdir.

Bəllidir ki, respublikamızda vergi nəzarətini təkmilləşdirməyə tuşlanan tədbirlər öz parlaq nümunəsini ən çox mütəmadi günün tələbləri bazasında yenilənməkdə olan Vergi Məcəlləsindəki müddəalarda tapır. Burada isə hər şeydən

DOI: https://doi.org/10.36719/2023/VI

öncə nəzarət tədbirlərini təkmilləşdirməklə vergi ödəyicilərinə səmərəli nəzarət mexanizminin tətbiqi məsələsi diqqət mərkəzində tutulmuşdur. Xüsusilə, son zamanlar dövlətin iqtisadi durumunun ümumi inkişafında prioritet istiqamətlərdən biri olaraq ölkəmizdə müstəqil sahibkarlığın davamlı inkişafından ötrü hər cür zəruri şəraitin formalaşmasını elan etdiyini nəzərdə tutsaq, bu amilin vacibliyi daha da çoxalmış görünür. Habelə, iqtisadi müstəvidə, xüsusən də qeyri-neft sektoru tərəfdə möhtəşəm perspektivli infrastruktur layihələrin gerçəkləşməsi hədəfilə maliyyə mənbəyi hesab edilən dövlət büdcəsinin gəlirlərində vergi daxilolmalarının əsas yerlərdə durmasını vurğulamaqla vergi nəzarəti işinin dürüst və effektiv təşkili düşündüyümuzdən də gərəkli məsələdir (Rzayev, 2013: 115).

Hal-hazırda vergilər vətəndaşların və təşkilatların dövlətin saxlanmasına yönəldilmiş könüllü töhfələri kimi xarakterizə olunur. Vergi münasibətlərində hər bir ödəyicinin bu münasibətlərdə iştirakının müstəqilliyinin elementi qoyulur. Buna görə də verginin mahiyyətini müəyyən edən vergi münasibətləri məcburi-dağıdıcı münasibətlər kimi deyil, könüllü-müstəqil, paylanmasından irəli gələn vergi ödəyiciləri ilə hökumət arasında pul vəsaitləridir. Nəticədə dövlət büdcəsinin mədaxil hissəsinin formalaşması zamanı yaranan münasibətlər baxımından verginin mahiyyəti özünü sırf fiskal münasibətlərdə deyil, bölgü münasibətlərində göstərir. Elə bu səpkidə vəzifələrdən çıxış edərək vurğulamaq olar ki, müasir durumda vergi nəzarətinin təkmilləşdirilməsi, onun hazırki məqamın tələblərinə uyğun şəkildə təzədən qurulması və səmərəliliyinin artırılması qarşıda duran önəmli vəzifələrdən biri hesab edilir.

DOI: https://doi.org/10.36719/2023/VI

## Ədəbiyyat

1. Belskiy, K.S. (2006). Nalogovaya sistema: osnovnyye printsipy, elementy. №9, s.56.
2. Karaseva, M. (2011). Finansovoe pravo Uchebnik, - Moskva, – 617 s.
3. Rzayev, Z.H., Xəlilov, Ş.İ. (2008). İqtisadi tərəqqi və vergi siyasəti. Bakı, “Çaşıoğlu”, 272 s.
4. Rzayev, P.Q. (2013). İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Bakı. İqtisad Universiteti, 392 s.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 15-19
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 15-19
DOI: https://doi.org/10.36719/2023/VI

**Elmar Muradov**
Bakı Dövlət Universiteti
Magistrant
elmar88emdk@mail.ru

# QLOBAL DÜNYA İQTİSADİ MÜHİTİNDƏ TRANSMİLLİ KORPORASİYALAR

***Açar sözlər:*** *TMK, xarici investisiyalar, rəqabət, qloballaşma, beynəlxalq iqtisadiyyat*

***Keywords:*** *TMK, foreign investments, competition, globalization, international economy*

Transmilli korporasiyalar beynəlxalq iqtisadiyyatın ən mühüm subyektlərindən biridir. Bu məqalədə beynəlxalqlaşmanın transmilli korporasiyaların rəqabət qabiliyyətinin artırılmasında necə həyata keçirildiyi, transmilli korporasiyaların dünya iqtisadiyyatında dayanıqlı iqtisadi artımı təmin etməkdə necə mühüm rol oynadığı göstərilib. Həmçinin, transmilli şirkətlərin beynəlxalq və milli mühitə gərəkli tərzdə cəlb edilməsilə bərabər fərqli, iqtisadiyyatlar və başqa maraqlı tərəf təmsilçilərindən ötrü real risk və səmərəliyi araşdırmaq önəmli məsələlərdən hesab edilir.

Qloballaşma proseslərinin dərinləşməsi ilə müşayiət edilən dünya iqtisadi arenasının strukturu və fəaliyyət gedişatında cərəyan edən köklü dəyişikliklərin əsasında sahibkarlıq kapitalının beynəlxalq hərəkəti durur. Dünya ölkələri arasında əlaqələrin daha geniş yayılmış və inkişaf etmiş forması kimi beynəlxalq ticarət sürətlə genişlənir, onun həcmi və xüsusi çəkisi daim artır.

Beynəlxalq iqtisadi arenanın ən vacib subyektləri dairəsində transmilli şirkətlər özünəməxsus, önəmli yerdə durur. Onlar bilavasitə beynəlxalq biznes aləmində müasir

DOI: https://doi.org/10.36719/2023/VI

tendensiyalar, xarici bazarlarda qlobal rəqabət bacarığına, habelə dövlətlərin, xalqların iqtisadiyyatlarına təsir göstərir.

Beynəlxalqlaşmanın transmilli şirkətlərin rəqabət gücünün yüksəldilməsində necə həyata keçirildiyi, TMK dünya iqtisadi arenasında stabil iqtisadi yüksəlişinə yiyələnmək və bu mühitdə rəqabətə davamlığını artırmaqdan ötrü cari qlobal iqtisadi təlatüm yaradan proseslərdə müqayişəedilməz tərzdə mühüm rol sərgiləyir (Abbasov, Abbasov, 2021: 315).

Con Svioklanın gəldiyi qənaətə görə, qloballaşma iki başlıca aspekti olan bir prosesdir: "Bütün dünyada cəmiyyət və dövlətlər dairəsində qarşılıqlı təmasın və qarşılıqlı asılılığın əhatə çevrəsinin genişlənməsi və dərinləşməsi." O, genişlənmə ilə əlaqədar vurğulayır ki, qloballaşma coğrafi əlaqələri faktiki şəkildə tam böyük dövlət və cəmiyyətləri əhatə edəcək tərzdə genişləndirir. Yekun nəticədə dünyanın bir qutbündə qəbul olunan hadisələr və siyasətlər uzaq yerlərə əhəmiyyətli təsir sərgiləyir. Dərinləşmələrlə bağlı olaraq o, qloballaşmanın qarşılıqlı təmas və asılılığın tezliyini və intensivliyini necə artırdığını göstərir (Sviokla, 2006: 115).

S.Brakman isə iddia edir ki, transmilli və yaxud da çoxmillətli şirkətlər özünəməxsusluğu ilə seçilən məhsullarının bir sıra ölkələrdə istehsalını reallaşdıran və satışını həyata keçirməklə əlavə dəyər yaradan kompaniyalardır. Transmilli şirkət yalnız qərargahının olduğu yerdə deyil, fərqli ölkələrdə müvafiq olaraq tədqiqat, istehsal, satış və bu səpkidə fəaliyyətləri həyata keçirən şirkət hesab olunur. Eyni zamanda TMK-lar öz təchizatçıları, müştəriləri və əməkdaşlıq edən partnyorları ilə bir qədər sabit, beynəlxalq səviyyədə fəaliyyəti gerçəkləşdirən korporativ strukturlar yaradırlar. Onlar tədqiqat aparmaq və inkişaf məqsədilə sərmayə yatırımından ötrü xeyli qazanc hasil edir və korporativ strukturların formalaşdırılması sayəsində sonradan qlobal

DOI: https://doi.org/10.36719/2023/VI

dairədə dərinləşən texnologiya seçiminə mühüm səviyyədə təsir göstərirlər (Brakman, 2006: 115).

Həmçinin transmilli şirkətlərin beynəlxalq və milli mühitə gərəkli tərzdə cəlb edilməsilə bərabər fərqli, iqtisadiyyatlar və başqa maraqlı tərəf təmsilçilərindən ötrü real risk və səmərəliyi araşdırmaq önəmli məsələlərdən hesab edilir. Bu səylərin hədəfi qlobal dünya iqtisadi aləmində dayanıqlı iqtisadi və sosial yüksəlişə və daha pozitiv həyat keyfiyyətinə yiyələnməyə səbəb olmaq iqtidarındadır. Transmilli şirkətlərin bazar iqtisadiyyatı qanunlarının daha işlək səviyyə çatması və dayanıqlı inkişafı, xalqın məşğulluq səviyyəsinin yüksəldilməsi və sosial rifah tərzinin yaxşılaşdırılması, istehlak bazarında sağlam rəqabət şəraitinin formalaşmasındakı xidmətlərini də vurğulamaq yerinə düşər. Mövcud durumda cərəyan edən fərqli milli iqtisadiyyatlar dairəsində iqtisadi öhdəliklərin təzədən bölgüsü prosesi iqtisadi asılılığın dərinləşməsinə öz töhfəsini verir. Qlobal iqtisadiyyat bu əsasda tamamilə azad ticarəti nəzərdə tutur, biznes sahəsində fəaliyyəti gerçəkləşdirən və milli iqtisadiyyatlar daxilində uğurla işləyən eyni şərtləri yaradır. Bu sahədə yaxınlaşma, yəqin ki, Avropa İttifaqında gedən inteqrasiya prosesləri ilə ən aydın şəkildə nümayiş etdirilir.

Qloballaşmanın ən parlaq təzahürlərindən biri beynəlxalq biznes fenomenidir ki, bu məkanda qlobal mühitdə beynəlmiləlləşmə proseslərini dəstəkləyən və dərinləşdirən beynəlxalq iqtisadiyyatın subyektləri - transmilli şirkətlər önəmli rol oynamaqla diqqəti cəlb edir. Elmi və texnoloji inqilabın inkişafı yekununda TMK-lar müasir qlobal iqtisadi aləmin ən önəmli və dominant fenomenlərindən biri hesab edilir.

Ümumiyyətlə, transmilli şirkətlər beynəlxalq istehsalın beynəlmiləlləşməsinin, beynəlxalq ticarətin liberallaşmasının və nəhayət, dünya iqtisadiyyatının qloballaşmasının

DOI: https://doi.org/10.36719/2023/VI

hərəkətverici qüvvələrindən biri hesab edilir, həmçinin elmi-texniki inqilabın inkişafı ilə bağlı şəkildə transmilli şırkətlərə uyğun tərzdə cari dövrün ən vacib və ən dominant hadisələrindən birinə çevrilir. Transmilli şirkətlər tarixən qlobal müəssisələrin idarə edilməsində müasir mərhələdir, onlar yeni qlobal sistemin "əzələləri və beyni"dirlər ki, burada onların uğurları zəif işçi qüvvəsi və milli hökumətlərin alçaldıcı rolu ilə əvəzlənir.

Qloballaşmanın qlobal bazarlarda fəaliyyət göstərən bütün qurumlara eyni dərəcədə təsir göstərmədiyinin şahidi ola bilərik. Strateji ittifaqların qiymətləndirilməsi baxımından (yəni əməkdaşlıq edən şirkətlər) qloballaşma bəzən yalnız bəlli sektorlar və ya ölkələrlə əlaqələndirilir. Digər sahələrdə o, yalnız inkişafın ilkin mərhələsində qalır. Öz strukturlarını və strategiyalarını inkişaf etdirərək böyük korporasiyalar qloballaşmanın təsirinə məruz qalmamalı, əksinə, daxili mühit tərəfindən formalaşmağa meylli olmalıdırlar. Şirkətlər uzunmüddətli formalaşan daxili institusional mühitə uyğunlaşır və qloballaşma faktorlarından birbaşa təsirlənmir. Korporativ idarəetmə şirkətlərin uzunmüddətli inkişafına təsir edən amillərdən biridir. Lakin qloballaşma strategiyaların dəyişdirilməsi üçün təkliflər də gətirir. Bu, avtomatik olaraq vahid bazar yaratmaq demək deyil, lakin o, milli bazarlarda olanlarla eyni mürəkkəb rəqabət alətlərini ifadə edən çoxölçülü varlıqdır. Transmilli şirkətlərin rəqabət bacarığına təsiretmə gücünə malik amillər son zamanlar ön plana çıxıb. Rəqabət bacarığının yüksəldilməsi hədəfi ilə düzgün siyasətin müəyyənləşdirilməsi və reallaşması prosesində rəqabətqabiliyyətlilik determinantları müstəsna rol oynayır. Müasir qlobal dünyada beynəlxalq rəqabət qabiliyyəti qazanmış və indiki mövqelərinə çatmış ölkələrin əksəriyyəti bu uğuru strateji xarici ticarət siyasətləri vasitəsilə əlçatan ediblər. Bəllidir ki, qlobal rəqabət şəraitində bu uğur ölkələrin qlobal

DOI: https://doi.org/10.36719/2023/VI

miqyasda cərəyan edən xarici ticarətin dəyişən parametrlərinə uyğunlaşmasından asılıdır. Xarici ticarətin yüksək texnoloji inkişaf məqamında həyata keçirildiyi qlobal dünyada ölkələrin yalnız yerli şirkətləri dəstəkləyərək beynəlxalq rəqabət qabiliyyətini təmin etməklə uğur qazanması mümkün deyil. Xarici ticarətin strateji olaraq aparıldığı bir mühitdə verilən bu dəstəyin innovasiyaya əsaslanan bir sistemlə qidalanmadığı, başqa sözlə, yüksək texnologiyaya söykənən bir məlumat olmadığı müddətcə beynəlxalq rəqabət gücünün əldə edilməsi ilə nəticələnməyəcəyi aydın görünür.

## Ədəbiyyat

1. Abbasov, A.B., Abbasov, S.A. (2021). “Kiçik və orta sahibkarlığın idarə edilməsi”. Dərslik-monoqrafiya. Bakı, 384 s.
2. Sviokla, C. (2006). Yeni rəqəmsal iqtisadiyyat. Biznesi necə dəyişdirəcək. 115 s. http://www.citibank.com/transactionservices/home/
3. Brakman, S. (2006). Qlobal iqtisadiyyatda millətlər və firmalar - beynəlxalq iqtisadiyyat və biznesə giriş. Cambridge: Cambridge University Press. 115 s.

DOI: https://doi.org/10.36719/2023/VI

**Həsən Musayev**
Bakı Dövlət Universiteti
Magistrant
hesenmusayev09@gmail.com

# TURİZM XİDMƏTİNDƏ AUDİT NƏZARƏTİNİN TƏŞKİLİ

***Açar sözlər:*** *maliyyə nəzarət, audit, turizm xidməti, mühasibat uçotu, biznes*

***Keywords:*** *financial control, audit, tourism service, accounting, business*

Müasir şəraitdə Azərbaycanın maliyyə ehtiyatlarının beynəlxalq kapital bazarına qoşulması, xarici investorların ölkə iqtisadiyyatına olan marağının gücləndirilməsi, ölkədə qüvvədə olan maliyyə sisteminin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması məqsədilə maliyyə nəzarətinin və audit sisteminin mütərəqqi tələblər səviyyəsində təzədən qurulması ən aktual problemlər kimi qarşıda durmuşdur. Hal-hazırda da gündəlik həyatımızda rast gəlinən iqtisadi sahədə cinayətlərin və dövlət vəsaitlərindən lüzumsuz istifadə hallarının aradan götürülməsində dövlət maliyyə nəzarətinin daha da gücləndirilməsi böyük əhəmiyyət kəsb edir.

Azərbaycanda 2020-ci ilin məlumatlarına əsasən, turizmin ÜDM-də payı 1,2 faiz azalıb, beynəlxalq turizmdən əldə olunan gəlir 0,3 milyon ABŞ dolları təşkil etmişdir ki, bu da əvvəlki illə müqayisədə 83,3 faiz azdır. Turizmin ümumi ixracda payı 85% azalaraq 2% və ya 0,3 milyon ABŞ dolları təşkil etmişdir. Sərt karantin tədbirləri, sərhədlərin bağlanması, turist səfərlərinə məhdudiyyətlər, əhalinin gəlirlərinin azalması - bütün bunlar turizm sahəsinə təsir etmiş və nəticədə iqtisadiyyatın bu sahəsi 90% azalmışdır.

Bu baxımdan demək olar ki, iqtisadiyyatın bütün sahələrində maliyyə əməliyyatlarının qüvvədə olan qanunvericiliyin tələblərinə uyğunluğunu, onların şəffaflığını və təyinatına uyğun təmin edən mexanizm kimi, maliyyə nəzarətinin və auditin təkmilləşdirilməsi başlıca vəzifələrdən birinə çevrilir. İqtisadi islahatların strateji əsası büdcə gəlir və xərclərinin daha səmərəli idarə olunmasını mümkün edən dövlət nəzarət sisteminin yaradılmasından, dövlət xərclərinin mövcud qanunvericiliyə uyğun olaraq maliyyə nəzarəti qurumları və audit təşkilatları vasitəsilə yoxlanılmasından, təhlil edilməsindən, iqtisadiyyatın inkişaf yollarının araşdırılmasından və bu sahədə ardıcıl olaraq tərəqqi təkliflərin hazırlanmasından ibarət olmalıdır (Abbasov, 2021: 250).

Azərbaycanda səmərəli fəaliyyət göstərə bilən audit nəzarəti sisteminin yaradılmasında daha mühüm rol oynayan amillərdən biri bütün sosial-iqtisadi fəaliyyət agentlərinin maliyyə təsərrüfat nəticələrinin şəffaflığını təmin edən mühasibat uçotu, mühasibat hesabatı və audit standartlarının işlənib hazırlanmasıdır.

Bazar iqtisadiyyatının təşəkkülü və inkişafı təsərrüfat münasibətlərinin həyata keçirilməsi və tənzimlənməsi üzrə yeni fəaliyyət növlərinin yaradılmasını zəruri edir. Onlardan biri müstəqil maliyyə nəzarəti yolu ilə təsərrüfat subyektlərinin qanuni əmlak maraqlarının mühafizəsini təmin edən daxili auditor fəaliyyətidir. Audit müəssisələrin maliyyə-təsərrüfat fəaliyyəti haqqında məlumatların müəyyən olunmuş meyarlara uyğunluq dərəcəsinin müəyyən edilməsi və auditor yoxlamasının nəticələrinin maraqlanan istifadəçilərə təqdim edilməsi məqsədilə onların toplanması və qiymətləndirilməsi prosesidir.

Respublikamızda bazar iqtisadiyyatı qanunlarının fəaliyyət göstərməsi, dünyanın iqtisadi məkanına sıx inteqrasiya, biznesin sürətli inkişafı, müxtəlif təşkilati-hüquqi formaların

DOI: https://doi.org/10.36719/2023/VI

meydana gəlməsi idarəetmə sahəsində köklü struktur dəyişikliklərin edilməsini, nəzarətin təşkili və həyata keçirilməsi sisteminin təzədən yaradılmasını zərurətə çevirir. Audit aktiv və öhdəlik, həmçinin, xüsusi vəsaitlərin və maliyyə yekunlarının dəqiq, tam və durüst əks etdirilməsinə aydınlıq gətirilməsi hədəfilə mövcud qanunlardan doğan, paralel şəkildə iqtisadi subyektlər tərəfindən ortaya çıxarılan illik maliyyə uçot hesabatlarının müstəqil qaydada yoxlanmasını nəzər dairəsində saxlayır. Auditin ana sütununu dövlətin, şirkət sahiblərinin qarşılıqlı maraq dairəsi təmsil edir .

Ölkəmizdə bazar iqtisadiyyatının formalaşması, mülkiyyət münasibətlərinin dəyişməsi, iqtisadi münasibətlərin yeni kontekstdə formalaşması, vergi islahatları və s. bu kimi amillər mühasibat uçotunun nəzəri prinsiplərinə və metodologiyasına, eyni zamanda sahəvi xüsusiyyətlərinə yeni prizmadan yanaşılmasını vacib şərt kimi qarşıya qoydu. Aparılan tədqiqatlar göstərir ki, ölkəmizdə bu sahədə iqtisadi, hüquqi islahatlar aparılmışdır. Mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində çoxlu işlər görülmüşdür.

Müasir şəraitdə turizm müəssisələrində uçot sisteminin təşkilinin özünəməxsus cəhətləri vardır. Bu özünəməxsusluq turist xidməti göstərən sahədə fəaliyyətin, o cümlədən mühasibat uçotunun təşkilinə yanaşmasının müxtəlifliyi və hazır xidmətin müxtəlifliyi ilə əlaqədardır. Turizm sahəsinin özünəməxsusluğu onun milli iqtisadiyyata təsiri, tələb və eyni zamanda təklifin turistlər vasitəsilə formalaşmasından ibarətdir. Turizmdə göstərilən xidmətlərin fərqləndirici xüsusiyyətlərindən biri də göstərilən xidmətlər kompleksinin ərazi bütövlüyü ilə bağlıdır. Xidmət göstərilən zaman formalaşan tur məhsullar mahiyyət etibarilə müxtəlif növ tur xidmətlərin məcmusunu özündə əks etdirir. Bir turistə təklif olunan tur paket bir sıra xidmətləri özündə əks etdirir ki, bura

DOI: https://doi.org/10.36719/2023/VI

siğorta, nəqliyyat xərcləri, gecələmə xərcləri, gid xidməti, yemək xərcləri və s. kimi xərclər daxildir. Bütün bunlar turizm xidmətində mühasibat uçotunun təşkilinin özünəməxsus xüsusiyyətlərini formalaşdırır.

Aparılan tədqiqatlar göstərdi ki, turizm müəssisələrində mühasibat uçotunun operativliyi və dəqiqliyi baş verən təsərrüfat əməliyyatlarının düzgün rəsmiləşdirilməsindən asılıdır. Çünki turizm müəssisələrində ən çox uçota alınan əməliyyatlar xidmətlərin satışı ilə bağlıdır. Turizm xidmətlərinin reallaşması bir neçə mərhələdə baş verir. Daha dəqiq desək, müxtəlif növ xidmətlərin məcmusu kimi çıxış edir. Buna görə də müasir şəraitdə turizm xidməti göstərən müəssisələrdə təsərrüfat əməliyyatlarının sənədləşdirilməsinə xüsusi önəm verilir (Quliyeva, 2017: 150).

Turizm dövlət büdcəsinin gəlirlərinin formalaşmasında, ticarət balansının sabitləşməsində, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəlməsində, işsizliyin azaldılmasında və digər sahələrin inkişafının stimullaşdırılmasında mühüm rol oynayır. Ən önəmlisi, ölkədə turizmin inkişafı və turizm məhsullarının beynəlxalq standartlara uyğunluğu ölkənin beynəlxalq miqyasda imicinə müsbət təsir göstərir. Buna görə müasir şəraitdə turizmin inkişafina nail olmaq ölkənin başlıca məqsədlərindən olmalıdır. Bu baxımdan turizmin təşkilinin və bu sahədə mühasibat işinin və auditin beynəlxalq standartlara uyğunlaşdırılması mühüm əhəmiyyət kəsb edir. Bir sevindirici halı da qeyd etmək lazımdır var ki, son zamanlar ölkə prezidentinin rəhbərliyi ilə işğaldan azad edilmiş torpaqlarımızda turizmin gələcək inkişafı üçün geniş quruculuq işləri gedir.

Müasir şəraitdə turizm müəssisələrinin fəaliyyətinin səmərəliliyi onların daxili audit sisteminin təşkili səviyyəsindən asılıdır. İstənilən fəaliyyətdə informasiya təminatı olmadan idarəetmənin həyata keçirilməsi mümkün

DOI: https://doi.org/10.36719/2023/VI

deyil. Turizmin cəmiyyətdəki nüfuzu, iqtisadiyyatdakı rolu artdıqca bu sahədə hesablılığın təkmilləşdirilməsi və informasiya istifadəçilərinin ehtiyaclarının təmin olunması mühüm aktuallıq kəsb edir (Pisarevski, 2014: 255).

Fikrimcə, müasir qloballaşma dövründə turizmdə hesabatlılıq nə qədər təkmil formada təşkil olunsa, müəssisənin fəaliyyətində daxili və kənar istifadəçilərə informasiya əlçatanlığı təmin olunsa firmanın əhatə dairəsi bir o qədər genişlənər.

Bu baxımdan turizm firmalarında hesabatlılıq, onun formalaşmasının nəzəri-metodoloji əsaslarının öyrənilməsi və elmi-baxımdan əsaslandırılmış hesabatlılıq sisteminin yaradılması günün aktual problemlərindəndir.

## Ədəbiyyat

1. Abbasov, A.B. (2021). Kiçik və orta sahibkarlığın idarə edilməsi. Dərslik-monoqrafiya. 384 s.
2. Quliyeva, Ş.T. (2017). Menecmentin əsasları. (Dərs vəsaiti). Bakı. 150 s.
3. Pisarevski, E.L. (2014). Turizmin əsasları. Dərslik. Moskva. 375 s.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 25-29
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 25-29
DOI: https://doi.org/10.36719/2023/VI

**Şamil Verdizadə**
Bakı Dövlət Universiteti
Magistrant
samil.verdizade@gmail.com

# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN MALİYYƏLƏŞDİRİLMƏSİ

***Açar sözlər:*** *sahibkarlıq, innovasiyalı inkişaf, dövlət dəstəyi, investisiya fondu*

***Keywords:*** *entrepreneurship, innovative development, state support, investment fund*

Maliyyə mexanizmi ilə təmasda olan problemli məsələlər hazırki mövcud durumda hər birimizi düşündürən önəmli işlər içərisində yer alır. Çünki real həyatda maliyyə sahəsində cərəyan edən, bizim fəaliyyətimiz ilə əlaqəsi olmayan proseslər hər birimizin şəxsi rifahı ilə sıx bağlıdır. Gəlir və vergilərin dərəcəsi, məcburi dövlət sığortası, işsizliyə və tibbi sığortaya köçürmələr, istiqraz və səhmlərin dəyəri, istehsal və sosial sferaya yatırımların yerləşdirilməsi formaları şəklində məsələlər bugünki reallıqda təkcə hökumət dairələri sahəsində müzakirə olunmur, hamımızı dərindən fikirləşməyə məcbur edir.

İstənilən iqtisadi sistemin son hədəfi cəmiyyətin və fərqli fərdlərin tələbatlarının qaşılanmasından ibarətdir. İşğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi yüksəlişin təmin olunması prosesində maliyyə mexanizminin modernləşdirilməsinin ilkin mərhələsi təşkilati struktur və maliyyə resursları arasında əlaqələrin qurulmasından idarətdir. Bu, maliyyə resurslarının bölüşdürülməsi barədə qərar qəbul edilməsini və onları şirkətin konkret fəaliyyət istiqamətində cəmləşdirməyi nəzərdə tutur.

DOI: https://doi.org/10.36719/2023/VI

Növbəti mərhələdə maliyyə resurslarına tələbatın müəyyənləşdirilməsi haqqında qərara gəlinir və nəticədə şirkətin biznes-planı hazırlanıb ortaya qoyulur.

İşğaldan azad olunmuş ərazilərdə sosial-iqtisadi yüksəlişin təmin edilməsinin maliyyə mexanizmi büdcə vəsaitlərinin konkret prosedurlara ciddi riayət etməklə və yüksək şəffaflıqla daha səmərəli xərclənməsinə şərait formalaşdırmalıdır. Bu hal ölkə iqtisadiyyatının postneft dövründə innovativ modernləşməsi nöqteyi-nəzərdən aktuallığı ilə seçilir. Göstərilən dəlillər işğaldan qurtulmuş regionların sosial-iqtisadi yüksəlişinin təmin olunmasının maliyyə mexanizmini təkmilləşdirmə üsullarının vacibliyini və praktiki əhəmiyyətini, eləcə də ölkə iqtisadiyyatının effektiv fəaliyyətinin artırılmasının vacibliyini hasil edir (Abasov, Abbasov, 2021: 255).

Son zamanlar işğaldan azad edilmiş ərazilərin bərpası prosesində dinamik inkişaf meyli müşahidə olunur və respublikanın sosial-iqtisadi yüksəlişi müstəvisində qarşıya çıxan vacib vəzifələr uğurla həyata keçirilir. Əminliklə bir məqamı qeyd edə bilərik ki, ölkəmizdə qeyri-neft sferası üzrə yüksəliş müşahidə olunmaqdadır. Bu sektorda aparıcı sahələrdən biri aqrar sahədir. İşğaldan azad edilmiş ərazilərdə aqrar sahənin inkişafına nail olunması burada yürüdülən ardıcıl və məqsədyönlü islahatların məntiqi hədəf nöqtəsidir.

Sahibkarlığın inkişafına yatırılan investisiyalar ölkə əhalisinin ərzaq məhsulları ilə tam təminatına münasib imkan formalaşdırmışdır. Xarici praktikaya rəğmən aqrar sektorda investisiyalaşmada dövlət dəstəyinin geniş diapozonlu sisteminin formalaşması əhəmiyyətli məsələdir. Bu kimi vacib məsələnin çözülməsi aqrar sektorun əmtəə istehsalçılarına subsidiyaların verilməsini bilavasitə zərurətə çevirir.

DOI: https://doi.org/10.36719/2023/VI

Dünya praktikasında dövlət büdcəsindən aqrar sahənin modernləşdirilməsindən ötrü səmərəli subsidiyalar mexanizmi işlənib hazırlanmışdır.

Digər həlli vacib olan məsələ kənd təsərrüfatı sferasında innovasiya proseslərinin maliyyələşdirilməsidir. Kənd təsərrüfatı sferasında da innovasiya fəaliyyəti üçün maliyyə resurslarının formalaşdırılmasının bəzi səciyyəvi xüsusiyyətləri mövcuddur. Bu, hər hansı konkret layihənin investisiya fəaliyyətinin maliyyələşdirilməsi barədə birdəfəlik tədbir deyil, daimi və mərhələlər boyunca cərəyan edən dinamik proseslərin maliyyələşdirilməsidir. Yəni innovasiyanın yaradılması mərhələsində elmi-texniki fəaliyyət maliyyələşdirilir, bu da yekunda elmi məhsulda təzahür edir, onun yayılması mərhələsində informasiya, təbliğat, maarifləndirmə, idarəetmə fəaliyyəti maliyyələşdirilir.

Kreditləşdirmə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı formalarından birini ifadə edir. Kiçik və orta sahibkarlıq subyektlərinə dəstək infrastrukturu yaradan kiçik və orta sahibkarlıq müəssisələrinə Azərbaycan Respublikasının mövcud qanunvericiliyinə uyğun olaraq dövlət və yerli büdcələrdən subsidiyalar, büdcə investisiyaları və öhdəliklərinə görə zəmanət təqdim edilməsi yolu ilə maliyyə dəstəyi göstərilə bilər.

Lizinq mürəkkəb sosial-iqtisadi hadisə kimi çoxukladlı iqtisadiyyatın formalaşması və istehsal fəaliyyətinin fəallaşdırılması üzrə ən mühüm xalq təsərrüfatı funksiyalarını yerinə yetirir. Klassik lizinq münasibətlərində lizinqverən, lizinqalan və satıcı kimi lizinq müqaviləsinin subyektləri iştirak edirlər. Bununla yanaşı, lizinqin bir investitsiya mexanizmi kimi inkişafı nəticəsində banklar və sığorta şirkətləri də lizinq münasibətlərinə daxil olurlar. Deməli, lizinqin şərtləri bütün tərəflər üçün daha çevik və sərfəli olur.

DOI: https://doi.org/10.36719/2023/VI

Lizinq əməliyyatları bir qayda olaraq banklar, lizinq şirkətləri, avadanlıq istehsalı və ya satışı ilə məşğul olan şirkətlər tərəfindən maliyyələşdirilir. Mövcud təcrübəyə görə lizinq verənlər özlərini cəlb edilmiş vəsait hesabına maliyyələşdirirlər. Belə ki, bütün dünyada lizinq əməliyyatlarının 80 faizi kreditlər hesabına maliyyələşdirilir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə lizinq şirkətləri açıq bazarda və ya depozitlər hesabına maliyyə əldə edirlər, inkişaf etməkdə olan ölkələrdə isə lizinq əməliyyatları əsasən banklar tərəfindən yaradılmış lizinq şirkətlərinə verilən kreditlər və ya beynəlxalq maliyyə qurumlarının vəsaiti hesabına maliyyələşdirilir.

Vençur kapitalı – yüksək risklidir, yeni yaradılan və sürətlə inkişaf edən kiçik və orta sahibkarlıq subyektlərinin, eləcə də müflisləşmə ərəfəsində olan müəssisənin maliyyələşdirilməsi üçün xarici investorlar tərəfindən təqdim edilən pul vəsaitidir. Vençur kapitalını peşəkar investorlar şirkətin menecerləri ilə birlikdə yeni və sürətlə inkişaf edən müəssisəyə investisiya kimi təqdim edirlər, həm də o, yeni yaradılan şirkətin səhmdar kapitalının mühüm mənbəyinə çevrilir (Abbasov, Abasov, 2014: 155).

Mikromaliyyələşdirmə kreditlərin verilməsi və depozitlərin qəbulu ilə əlaqədar kiçik maliyyə xidmətini ifadə edir, hansı ki, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan adamlara; kənd təəsrrüfatı xammalı emal edən və ticarət fəaliyyəti həyata keçirən kiçik, yaxud mikromüəəsisəyə; xidmət göstərən muzdlu işçilərə; torpaq sahəsini, nəqliyyat vasitələrini, maşın  və alətlərini icarəyə verən şəxslərə və yerli əhaliyə göstərilir (Ataşov, İbrahimov, Novruzov, 2014: 415).

Respublikamızın işğaldan azad edilən ərazilərində müsbət yüksəlişə yiyələnmək hədəfi ilə  investisiya fəaliyyətində uğurlara imza atılması maliyyə-vergi və gömrük prosedur qaydalarının daha da təkmilləşdirilməsi tələbini zərurətə

DOI: https://doi.org/10.36719/2023/VI

çevirir. Belə ki, investorları yerli bazarlara daxil olmaqdan çəkindirən arzuolunmaz amillərin ləğvindən ötrü bütün imkan və səylər bir nöqtədə cəmləşməli, bu sferada cəlbediciliyin maksimumlaşdırılmasına xüsusi önəm sərgilənməlidir.

## Ədəbiyyat

1. Abasov, A.B., Abbasov, S.A. (2021). "Kiçik və orta sahibkarlığın idarə edilməsi. "Dərslik-monoqrafiya, 384 s.
2. Abbasov, S.A., Abasov, A.B. (2014). "Maliyyə biznesi". Bakı. 356 s.
3. Ataşov, B., İbrahimov, E., Novruzov, N. (2014). Maliyyə nəzəriyyəsi. Dərslik. Bakı. 648 s.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 30-33
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 30-33
DOI: https://doi.org/10.36719/2023/VI

**Əli Qasımlı**
Bakı Biznes Universiteti
Magistrant
qasimliali94@mail.ru

# VERGİ POTENSİALININ MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

***Açar sözlər:*** *vergi potensialı, maliyyə potensialı, vergi tənzimlənməsi, vergitutma, vergi bazası*

***Keywords:*** *tax potential, financial potential, tax regulation, taxation, tax base*

Hər bir dövlətin iqtisadi vəziyyətini xarakterizə edən əsas şərtlərdən biri ölkənin cari xərclərini ödəyən maliyyə vəsaitlərinin daxil olmasıdır. Dövlət vergi siyasətini reallaşdırmaqla vergilərin yığılması sahəsində özünə aid olan fəaliyyəti həyata keçirir. Büdcənin gəlir hissəsinin yerinə yetirilməsi, iqtisadi artımın yüksəldilməsi üçün ehtiyatların axtarılması və digər vəzifələrin həllindən ötrü maliyyə xidmətlərinin bütövlükdə ölkə üzrə, həm də regionlar səviyyəsində vergi və maliyyə potensialının düzgün qiymətləndirilməsinə əsaslanan obyektiv informasiyaya malik olmaları zəruridir.

Maliyyə "potensialı" ("potentia") termininin özü latın mənşəlidir, tərcüməsi "qüvvə, güc" deməkdir. Onun iqtisadi mənası isə - "vəsaitlər, ehtiyatlar, mənbələr, hansılar ki, ortada mövcuddurlar və konkret vəzifənin, strategiyanın həyata keçirilməsi, müəyyən problemin həlli və s. üçün istifadə oluna bilərlər". İngilisdilli iqtisadi ədəbiyyatda "maliyyə potensialı" və "vergi potensialı" terminləri çox vaxt eyniləşdirilir. "Maliyyə potensialı" termininin məzmunu bu günə qədər kifayət qədər qeyri-müəyyəndir, o, tez-tez "vergi potensialı" termininin sinonimi kimi işlədilir.

DOI: https://doi.org/10.36719/2023/VI

Bu terminlərin sinonim olduğu belə ölkələrə misal olaraq ABŞ, Avstraliya, İsveç, Kanada, İsveçrə və s. göstərmək olar. MDB-nin bir çox ölkələrində olduğu kimi bizim ölkədə də bu anlayışlar diferensiallaşırlar. Əsas fərqləndirici cəhət ondan ibarətdir ki, maliyyə potensialı bütün maliyyə ehtiyatlarının köməyi ilə formalaşır, öz növbəsində vergi potensialı isə bu məcmunun ancaq müəyyən bir hissəsini təşkil edir. Maliyyə və vergi potensialı anlayışları prinsipial olaraq müxtəlif iqtisadi hadisələri ifadə edirlər və regionlararası müqayisə məqsədləri və büdcələrarası hesablaşmalar sisteminin qurulması üçün diferensiallaşma tələb edirlər. Vergi və maliyyə potensialının qiymətləndirilməsi üçün bu anlayışların həm geniş mənada, həm də dar çərçivədə izahı imkanlarının nəzərə alınması daha rasional hesab oluna bilər. Maliyyə və vergi potensialları haqqında tam təsəvvür formalaşdırmaq üçün bu anlayışları ayrı-ayrılıqda nəzərdən keçirək. Geniş mənada “vergi potensialı” - müəyyən ərazinin vergitutma ehtiyatları kompleksidir. Bir qədər dar, utilitar mənada “vergi potensialı” anlayışı vergilər haqqında qanunvericilik çərçivəsində hesablanan vergi və yığımlar üzrə daxilolmaların maksimal mümkün həcmi ilə ifadə olunur.

Vergi tənzimlənməsinin nəticəliliyi onun vergitutmanın aşağı və yuxarı optimal yol verilə bilən hədlərini müəyyən edən səmərəlilik və kifayətlilik meyarlarına uyğunluğundan asılıdır. Aşağı hədd kimi büdcənin tələbatı götürülür. Belə ki, vergitutma dövlətin əsas funksiyalarının maliyyələşdirilməsi üçün büdcənin tələbatından aşağı olmamalıdır. Yuxarı hədd isə vergi ödəyicilərinin ödəniş qabiliyyəti səviyyəsinə uyğun olmalıdır. Bu zaman vergitutma buraxıla bilən həddi aşmamalıdır. Əks təqdirdə, təkcə vergi ödəyicilərinin gəlirləri deyil, müvafiq olaraq vergi daxilolmaları da azalacaq, yaxud onların müflisləşməsi nəticəsində vergi daxilolmaları da olmayacaqdır. Beləliklə, vergitutmanın kifayətliliyi vergi

DOI: https://doi.org/10.36719/2023/VI

gəlirlərinin alınması üçün zəruri vergitutma şərtlərinin gözlənilməsini nəzərdə tutur.

Vergitutmanın səmərəliliyi nöqteyi-nəzərindən vergilər subyektin iqtisadi mahiyyətini təhrif edən və təhrif etməyən vergilərə bölünür. Təhrif etməyən vergilər özlərinin iqtisadi mahiyyətinə görə neytraldır. Bu vergilərə, məsələn, keçmişdə tətbiq edilən can vergisini aid etmək olar. Nəzərə almaq lazımdır ki, iqtisadi cəhətdən neytral olan vergilər ədalətsiz vergilər sayılır və onlar siyasi sabitliyin pozulmasına və gözlənilməz nəticələrin alınmasına səbəb ola bilər. Belə ki, Böyük Britaniyada Tetçer hökuməti tərəfindən varlılar və yoxsullar tərəfindən eyni qaydada ödənilən ictimai yığımların (can vergisinin bir növü kimi) tətbiqi İngiltərə şəhərlərində kütləvi ixtişaşlara səbəb oldu. Vergitutmanın neytrallığının təmin olunması üçün inkişaf etmiş ölkələrdə vergi islahatları gedişində fərdi gəlir vergisinin proqressiyası azaldılmış və mənfəət vergisi üzrə vergi güzəştlərinin sayı minimuma endirilmişdir.

Regionların inkişafının vergi tənzimlənməsinin məqsədi onların iqtisadiyyatının yüksəldilməsi, yerli büdcələrin formalaşdırılması və konkret vergi ödəyicilərinin maraqlarının nəzərə alınmasından ibarətdir. Burada da vergi daxilolmalarının paylanması, vergitutma səviyyəsi və kapitalın istifadə olunması məsələləri üzrə dövlətin, regionların və vergi ödəyicilərinin maraqlarının kəsişməsi vəziyyəti yaranır.

Mövcud vergi qanunvericiliyində vergitutmanın əsas və məcburi elementlərindən biri də vergi bazası müəyyən edilmişdir. Vergi bazası – vergitutma obyektinin vergi dərəcəsi tətbiq olunan, yəni vergi güzəşt və çıxılmaları nəzərə alınmayan hissəsidir. Deməli, müvafiq olaraq qüvvədə olan vergi qanunvericiliyi şərtləri daxilində bütün vergi və məcburi ödənişlərin vergitutma bazasının məcmusu, dövlətin (regionun, ərazinin) vergitutma bazası təşkil edir.

**DOI: https://doi.org/10.36719/2023/VI**

Bununla yanaşı, vergi ödəyicilərinin vergitutma bazasının cəmini də ümumi vergi bazası kimi müəyyənləşdirmək olar. Birinci hal iqtisadiyyatın inkişafının makro-göstəricilərinin qeydiyyatı və istifadəsini, ikinci isə təcrübədə çətin həyata keçirilən proses kimi göstərilən hər hansı bir dövlətin, regionun, əyalətin ərazisində qeydiyyata alınmış vergi ödəyicilərinin vergitutma bazalarının cəmlənməsini nəzərdə tutur. Buna baxmayaraq, vergi bazasını vergilərin cəminin real iqtisadi (statistik) göstəricisi kimi təqdim etmək mümkün deyil. Belə ki, vergitutma obyektləri də ayrı-ayrı vergilər üzrə ya dəyər, ya da fiziki xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Bu səbəbdən də mövcud vergi qanunvericiliyi şərtləri daxilində vergi daxilolmalarının və yığımların maksimal həddinin miqdarını özündə əks etdirən vergi potensialı real məzmun və müəyyən statistik ifadəyə malikdir.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 34-37
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 34-37
DOI: https://doi.org/10.36719/2023/VI

**Məhəmməd Muradlı**
Bakı Biznes Universiteti
Magistrant
mehemmedmuradli2@gmail.com

# BİRGƏ MÜƏSSİSƏLƏRDƏ MALİYYƏ RESURSLARINDAN İSTİFADƏNİN İDARƏ EDİLMƏSİ

***Açar sözlər:*** *investisiya, maliyyə resursları, investisiya mühiti, xarici kapital, investisiya siyasəti*

***Keywords:*** *investment, financial resources, investment climate, foreign capital, investment policy*

Xarici kapitalın ölkə iqtisadiyyatına hərəkətinin gucləndirilməsi elmi-texniki tərəqqi sahəsində əldə edilən son nailiyyətləri, müasir texnologiyaların tətbiqinə və aparıcı idarəetmə bacarıqlarının geniş vüsət almasına imkanları genişləndirir. Bazar münasibətləri şəraitində qanunların işlək səviyyədə olduğu ölkəmizdə investisiya imkanlarının reallaşdığı, xarici kapitalı cəlb etməkdən ötrü əlverişli investisiya mühitinin yaradıldığı hazırki durumda kapital qoyuluşu imkanlarının formalaşması və ondan yararlanmağın optimallaşması ilə bağlı məsələlərə aydınlıq gətirilməkdədir.

İqtisadi inkişafın strateji prioritet sahələrinin, investisiya yatırımının proqnoz modellərinin hərtərəfli əsaslandırılması, iqtisadi sahənin müasirləşdirilməsinə yönəldilən investisiya layihələrinin səmərəliliyinin hərtərəfli qiymətləndirilməsi, o cümlədən maliyyə resurslarından istifadənin tənzimlənməsi məsələsi elmi-praktiki nöqteyi-nəzərdən önəmlidir. Ölkənin regionlarında investisiya mühitinin müsbət istiqamətə doğru irəliləyişi sosial-iqtisadi transformasiyaların və şaxələnmiş təkrar istehsalın intensivləşdirilməsinin müasir meyllərini diqqətdə saxlamaqla mövcud durumda maliyyə resurslarından

DOI: https://doi.org/10.36719/2023/VI

istifadə imkanlarının yaranmasını və ondan istifadənin optimallaşdırılmasının daha təkmil qaydada müəyyənləşdirmək zərurətini ön plana çəkir. Bu prizmadan yanaşma ilə aşağıda sadalanan vəzifələrin çözülməsi ölkəyə investisiyaların yatırımında elmi-praktik yanaşmaların sosial-iqtisadi əhəmiyyətini yüksəldir:

- sosial bazar iqtısadiyyatının bərqərar olması məqamında yığımın və investisiya imkanlarının formalaşması qanunauyğunluqlarının aşkar edilməsi;
- regionlarda aqrar sferanın inkişafıyla bağlı investisiya imkanlarının geniş təkrar istehsala təsiri mexanizminin aydınlaşdırılması;
- istehsalın investisiya sferasının inkişafının əsas istiqamətlərinin və innovasiya amillərinin tədqiqi;
- regionlarda yatırılan investisiyaları təkrar istehsal və iqtisadi artımın intensivləşdirilməsinin strateji parametri olaraq diqqətdən keçirmək;
- ölkənin regionlarının uzun dövr üçün iqtisadi yüksəliş strategiyasının reallaşmasının investisiya aktivliyinə təsirini müəyyən etmək;
- ölkənin regionlarına xarici investisiya yatırımlarının cəlbi və məqsədli istifadə olunmasının strateji prioritetlərini tutarlı dəlillərlə əsaslandırmaq;
- qabaqcıl ölkələrdə aqrar sahənin investisiya prosesinin stimullaşdırılması və nəzarətdə saxlanması mexanizmlərinin təhlil edilməsi və s.

Azərbaycanda son zamanlar iqtisadi sferada yaranmış makroiqtisadi sabitlik regionlarımızda investisiya mühitinin yaxşılaşdırılmasına əlverişli zəmin yaratmışdır. Mövcud durumda investisiya mühitinin daha münasib imkanlarla həm daxili, həm də də xarici investisiyaların artırılması mexanizmi formalaşdırılmalıdır. Amma bir faktla da razılaşmaq lazımdır ki, xarici investisiyaya münasibətdə daxili investisiyanın

DOI: https://doi.org/10.36719/2023/VI

tətbiqində bəzi çətinliklər meydana çıxır. Bu arzuolunmaz hal isə hər şeydən əvvəl əhalidə olan əmanətlərin investisiyaya transformasiya edilməsindən ötrü real imkanların məhdudluğu ilə bağlıdır. Nümunə olaraq Yaponiya və Almaniyada fəaliyyət göstərən kommersiya banklarını göstərmək mümkündür. Yüksək imicə malik olan bu möhtəşəm kommersiya bankları regionların iqtisadiyyatı ilə qarşılıqlı təmas formasında fəaliyyət göstərir və stabil maliyyə-sənaye qruplarına çevrilirlər. Şübhəsiz ki, bu tərzdə əməkdaşlıq forması regionlarda investisiya prosesini canlandıraraq əmanətlərin investisiyaya çevrilməsinə güclü təsir göstərməklə daxili investisiyanın aktivləşməsi ilə nəticələnir.

Ölkədə həyata keçirilən investisiya siyasəti əsasən beynəlxalq kapitalın ölkəyə gəlişinin stimullaşması ilə bağlıdır. Düzdür, mövcud kapital axınının əsas hissəsi neft və qaz sektorunun inkişafına yönəldilir. Bununla yanaşı, milli iqtisadiyyatın formalaşması nöqteyi-nəzərindən daxili investisiyalar gələcəkdə mühüm faydalar təqdim edə biləcəkdir.

Ərzaq məhsulları ilə dünya ticarətinə xas olan xüsusiyyət ona dəlalət edir ki, burada sənayecə inkişafa yiyələnmiş ölkələrin mövqeyi möhkəmlənir və inkişaf etməkdə olan ölkələrin dünya təsərrüfatının aparıcı mərkəzlərindən ərzaq məhsullarına asılılığı artır. Beynəlxalq ticarət əlaqələrində ölkəmizin iştirakının mövcud vəziyyətinin təhlili sübut edir ki, milli iqtisadiyyatın son nəticəsi şəklində buraxdığı malların çeşidindən asılı olmayaraq ölkəyə gətirilən xarici mallar daim artmaqdadır. Son dövrlərdə xarici ticarət dövriyyəsində idxalın həcmi artmaqda davam edir ki, bu da daxili bazarda qiymət artımına gətirib çıxarmaqla milli istehsalın rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Bu mənada idxalın əvəz olunması və ixracyönümlü malların istehsalı artırılmalıdır. Ölkə iqtisadiyyatının sahələrinin inkişafı istər istehsal, istərsə

**DOI: https://doi.org/10.36719/2023/VI**

də istehlak təyinatlı xarici məhsulların idxalından müəyyən dərəcədə asılıdır. Dünya arenasında neftin qiymətlərinin sürətlə dəyişməsi və əhalinin idxal məhsullarına tələbatının artması şəraitində yerli müəssisələrdə məhsul istehsalının maya dəyəri xeyli çoxalmışdır ki, bu isə onların istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyinə arzuolunmaz mənfi fəsadların davam etməsidir.

Respublikamızın dayanıqlı inkişafına yiyələnməkdən ötrü ali səviyyəli sosial-iqtisadi göstəricilər şəraitində biznes subyektlərinin diferensiallaşdırılması yalnız investisiya mühitinin ölkə komponentilə yox, həmçinin də regionlar prizmasından yatırım mühiti müstəsna əhəmiyyət daşıyır. Regionun investisiya mühitini yatırım sahiblərini şirnikləndirən və yaxud geri qaytaran iqtisadi, siyasi, maliyyə, sosial, coğrafi, təşkilati və hüquqi amillərin toplusu şəklində müəyyənləşdirir. İnvestisiya mühitinin komponenti regionun həqiqi real gücünü özündə ehtiva edən kapital qoyuluşu potensialı da aid edilməklə investisiya cəlbediciliyidir.

İqtisadi sistemin daimi inkişafı qiymətləndirmə metodlarının mütəmadi olaraq təkmilləşdirilməsi zərurətini müəyyənləşdirir, regionlarda investisiya mühitinin idarə olunması hədəfilə təzə amillərin diqqət dairəsində saxlanması və yeni metodların işlənib hazırlanmasını tələb edir.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 38-41
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 38-41
DOI: https://doi.org/10.36719/2023/VI

**Pərviz Qurbanzadə**
Bakı Biznes Universiteti
Magistrant
pervizqurbanov01@gmail.com

# SAHİBKARLIQ FƏALİYYƏTİNDƏ VERGİ MENECMENTİNİN STİMULLAŞDIRMA ALƏTLƏRİ

***Açar sözlər:*** *vergi menecmenti, vergi siyasəti, stimullaşdırma, vergi yığımları, resurslar*

***Keywords:*** *tax management, tax policy, incentives, tax collections, resources*

Ölkədə vergi siyasəti sahibkarlığın inkişafı üçün əlverişli bir iqlimin formalaşmasında böyük əhəmiyyətə malikdir. Sahibkarlıq müəssisələrinin sektorunun genişləndirilməsi məşğulluq probleminin həllinə müsbət təsir göstərmək qabiliyyəti sayəsində biznesin, xüsusən sahibkarlığın vergi stimullaşdırılması dünyada geniş yayılmışdır.

Bir sıra ölkələrdə vergi sistemlərində stimullaşdırıcı funksiya yoxdur, həm də vergi ödəyicilərinə yalnız cəza metodlarının deyil, həm də təşviqlərin tətbiq edilməsi lazım olduğunu başa düşmək lazımdır. AB ölkələrinin də bəzilərində sahibkarlıq subyektlərinin sadələşdirilmiş vergi sistemlərindən istifadə edilmir. Vergi tənzimlənməsinin dünya prinsiplərinin mənimsənilməsi və vergi nəzarətinin təşkili, xüsusən ticarət biznesi sahəsində xarici təcrübənin öyrənilməsi Azərbaycan Respublikası üçün son dərəcə aktuallaşır, çünki bu, milli vergi sisteminin mövcud çatışmazlıqlarının daha sürətli aradan qaldırılmasına kömək edəcəkdir.

Azərbaycanın sabit iqtisadi vəziyyətinin əsas şərtlərindən biri cari xərclərin ödənilməsini təmin edən maliyyə vəsaitlərinin daxil olmasıdır. Dövlət müvafiq vergi siyasətini

**DOI: https://doi.org/10.36719/2023/VI**

həyata keçirməklə vergilərin toplanılması sahəsində öz fəaliyyətini icra etməkdədir. Büdcənin doldurulması, iqtisadi artımın artırılması üçün yeni ehtiyatların axtarışı kimi məsələlərin həlli üçün maliyyə xidmətləri həm bütövlükdə, həm də regional səviyyədə ölkənin vergi və maliyyə menecmentinin düzgün qiymətləndirilməsinə əsaslanan obyektiv informasiyaya malik olmanı tələb edir.

Hər bir dövlət öz iqtisadi və coğrafi vəziyyətini, milli xüsusiyyətləri və bir sıra digər amillərin spesifik fərqliliyini nəzərə alaraq, orijinal və təkrarsız vergi siyasətini həyata keçirir. Bu baxış müəyyən edilmiş qanunların həyata keçirilməsi üçün deyil, ilk növbədə, onların təkmilləşdirilməsi üçün nəzərdə tutulmuşdur. Dövlətlərin iqtisadi və vergi siyasətləri qarşısında duran hədəflər də müvafiq olaraq əhəmiyyətli dərəcədə fərqlənə bilir, onların mövcud resursları vergi menecmentinin formalaşmasının mənbəyi hesab olunur. Bu baxımdan vergi resurslarının formalaşma mənbələri eyni qismdən olmaya da bilər: yəni burada təbii, insan, texniki kimi resursların kəmiyyəti önəmli şəkildə çıxış edə bilir. Bununla yanaşı, əlbəttə ki, vergi yığımlarının və ödənişlərin mənbələrinin böyük bir hissəsinin akkumulyasiyası əslində meqapolislərdə, iri şəhərlərdə baş verir.

Vergi siyasəti vergi menecmentinin təşkilinə əsaslı təsir göstərən ayrılmaz bir elementdir. Bu, vergi menecmentinin formalaşmasına və inkişafına təsir edən xarici amillər sırasına daxil edilir.

İnkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanaraq deyə bilərik ki, müəyyən dövlət və regionun vergi menecmentinin səmərəli təşkili səviyyəsinin artırılması vergi yükünün artırılması ilə deyil, vergi tutulan bazanın genişləndirilməsi ilə mümkündür. Yeni müəssisələrin sayının artması, iqtisadiyyatın geridə qalmış sahələrinin aktuallaşması, ixracyönümlü siyasətin aparılması vergi daxilolmalarının həcmini və tempini artırır və

DOI: https://doi.org/10.36719/2023/VI

regionların maliyyə müstəqilliyinin genişlənməsinə səbəb olur. Vergi menecmentinin səviyyəsinin artırılması həm regionların, həm də bütövlükdə ölkənin sosial-iqtisadi vəziyyətinin daha da dinamik inkişafına gətirib çıxarır.

Vergi menecmentinin formalaşdırılmasını ətraflı nəzərdən keçirərkən aydın olur ki, vergi qanunvericiliyi, səmərəli vergi siyasəti vergi menecmentinin formalaşmasının əsas şərti olaraq təsiredici amillərin məcmusunda ən mühüm rola malikdir. Deməli, vergi siyasəti elə müəyyən edilməlidir ki, o, nəinki vergi menecmentinin formalaşmasına kömək etsin, həm də büdcəyə vergi daxilolmaları şəklində vergi menecmentinin təşkilinin reallaşdırılmasına gətirib çıxarsın.

Mövcud vəziyyətlə əlaqədar Azərbaycan Respublikasında zəruri normativ aktlar qəbul edilmiş, ölkə və regionların vergi menecmentinin inkişaf konsepsiyalarının əks olunduğu istiqamətlər müəyyən olunmuşdur. Aparılan siyasət büdcənin gəlir hissəsinin artırılması üçün yeni resursların axtarışına və vergi menecmentinin tam şəkildə istifadə edilməsinə yönəlməsi ilə müşahidə olunur:

✓ Biznes mühitinin yaxşılaşdırılması, daha da təkmilləşdirilməsi. Vergi orqanlarının nümayəndələrinin sahibkarlarla görüşlərinin sayı artmış, onlara sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi tədbirləri, dövlət qeydiyyatı üsulları, vergi uçotunun aparılması metodları barədə məlumatlar verilmişdir.

✓ Ölkədə qeyri-neft sektorunun inkişafının vergi menecmentinin formalaşdırılmasında əsas prioritetlərdən biri kimi müəyyən edilməsi. Neft məqsəd deyil, bu, vasitədir, onun vasitəsilə əvvəlcə neft sektoruna, hazırkı şəraitdə isə qeyri-neft sektoruna investisiyalar cəlb olunubdur.

✓ Milli iqtisadiyyatın dünya iqtisadiyyatına inteqrasiyası. İnteqrasiya səviyyəsinin seçilməsi ölkədə və dünya iqtisadi sistemində yaranmış vəziyyətdən asılıdır.

DOI: https://doi.org/10.36719/2023/VI

- ✓ Yeni satış bazarlarına çıxış ilə mövcud bazarlara əlavə ixrac potensialının, onun həcminin və çeşidinin artırılması. Azərbaycanda istehsal olunmuş qeyri-neft məhsullarının ixracını təşviq etməklə sahibkarlara ixrac olunan məhsulların gömrük dəyərinin müəyyən hissəsinin dövlət büdcəsindən ödənilməsi zəruri hesab olunub. Son illər sahibkarlar MDB ölkələrinin bazarlarına çıxışa daha çox üstünlük verirlər, lakin eyni məhsulu daha yüksək qiymətə satmaq üçün alternativ variantların da tapılması mümkündür.
- ✓ Yerli bazarın formalaşdırılması məqsədilə qorunması. Xarici ticarətin stimullaşdırılması üçün proteksionizm və ixracatçıların həvəsləndirilməsi mexanizmləri işə salınıb. Bu məqsədlə demping və ya subsidiyalaşdırılmış idxaldan yerli istehsalçının proteksionizminə yönəlmiş antidempinq, kompensasiya, qoruyucu tədbirlər həyata keçirilməlidir.
- ✓ Rezidentlər və qeyri-rezidentlər arasında vergi yükünün daha optimal uyğunlaşdırılması.
- ✓ Vergi ödəyicilərinin hüquqlarının daha da genişləndirilməsi.
- ✓ Vergi inzibatçılığının daha da təkmilləşdirilməsi, biznes prosedurlarının qeydiyyatı üçün vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin sayının artırılması.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 42-45
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 42-45
DOI: https://doi.org/10.36719/2023/VI

**Rifat Alməmmədov**
Bakı Biznes Universiteti
Magistrant
almamedovrifat@gmail.com

# KİÇİK SAHİBKARLIQDA MALİYYƏ VƏSAİTLƏRİNDƏN İSTİFADƏNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ

***Açar sözlər:*** *kiçik sahibkarlıq, kredit, maliyyə xidmətləri, biznes, ixrac*

***Keywords:*** *small business, credit, financial services, business, export*

Kiçik sahibkarlıq sahələri dünyanın əksər inkişaf etmiş ölkələrinin iqtisadiyyatlarının leytmotivini təşkil edir, ÜDM-in yüksəlməsində əsas rol oynayır, iş yerləri yaradır və iqtisadi artımı təşviq edir. Bununla belə, onlar da müəyyən zamanlarda maliyyələşməyə çıxışda bir sıra çətinliklərlə üzləşirlər. Kiçik müəssisələr Azərbaycanda bütün müəssisələrin əksər hissəsini təşkil etməklə ölkə əhalisinin məşğulluğunun təmin edilməsində böyük önəm daşıyır. Bu tip müəssisələr öz növbəsində maliyyə vəsaitləri ilə təminat, innovasiya səviyyəsinin yetərincə olmaması və xarici bazarlara məhdud çıxış da daxil olmaqla əhəmiyyətli problemlərlə üzləşirlər. Buna cavab olaraq Azərbaycan hökuməti vergi güzəştlərinin tətbiqi və kredit zəmanətinin yaradılması kimi kiçik sahibkarlığa dəstək üçün müxtəlif siyasət və proqramlar həyata keçirir.

Azərbaycanda kiçik sahibkarlığın dəstəklənməsi istiqamətində dövlət və özəl sektorun birgə fəaliyyəti bu sektora maliyyə dəstəyinin göstərilməsi istiqamətində uğurlu olmuşdur. Kredit zəmanət fondlarının yaradılması və aşağı

DOI: https://doi.org/10.36719/2023/VI

faizli kreditlərin verilməsi sahibkarların maliyyəyə çıxış əldə etməsinə və öz fəaliyyətlərinə yenidən başlamasına şərait yaratmışdır. İxrac fəaliyyətlərinə verilən dəstək həm də kiçik müəssisələrə öz bazarlarını genişləndirməyə və rəqabət qabiliyyətini artırmağa kömək etmişdir. İnkubatorların yaradılması yeni başlayan kiçik sahibkarlara fəaliyyətlərini inkişaf etdirmək və uzunmüddətli perspektivdə uğur qazanmaq üçün lazımi dəstəyi təmin etmişdir.

Son onilliklərdə kiçik sahibkarlıq iqtisadiyyatın mühüm sektoruna çevrilmişdir. Onun dünyanın aparıcı ölkələrinin ÜDM-də payı 50%-dən çoxdur. Statistik məlumatlara görə, inkişaf etmiş ölkələrin ÜDM-də kiçik və orta sahibkarlığın payı 50-60%-dir. Bu göstərici Böyük Britaniyada – 51%, Almaniyada – 53%, Finlandiyada – 60%, Hollandiyada - 63%-dir. Kiçik müəssisələrə xas olan idarəetmənin çevikliyi, sadəliyi və ucuzluğu, elmi və texnoloji tərəqqini təşviq etmək, həyata keçirilməsini sürətləndirmək, cəmiyyətin maliyyə və istehsal ehtiyatlarını səfərbər etmək qabiliyyəti iqtisadiyyatın bu sektorunun mühüm iqtisadi, antiinhisar, innovativ və sosial rolunu müəyyənləşdirir.

Qeyd etmək lazımdır ki, kiçik sahibkarlığın müsbət tərəfləri ilə yanaşı, mənfi cəhətləri də vardır: bunlar xarici mühitdən həddindən artıq asılılıq, qeyri-sabitlik, xüsusən maliyyə sarsıntıları, resursların olmaması, məhsul satışında çətinliklər və yüksək rəqabətdir. Onu da qeyd edək ki, "kölgə" iqtisadiyyatı məhz kiçik sahibkarlıqda fəal şəkildə yayılır və fəaliyyət göstərir. Kölgə iqtisadiyyatı problemi bir çox ölkələrdə mövcuddur. Kölgə biznesindən "qanuni sahibkarlığa" çıxmağın yeganə imkanı kiçik sahibkarların dünya miqyasında təşviq edilməsidir.

Azərbaycanda kiçik sahibkarlıq təxminən on illərdir iqtisadiyyatın tam subyekti kimi mövcuddur. Lakin bu sektorun bazar iqtisadiyyatının rasional quruluşunun tələbləri

DOI: https://doi.org/10.36719/2023/VI

baxımından inkişaf səviyyəsi hələ də kifayət qədər deyildir. Son illərdə Azərbaycanda kiçik sahibkarlığa dəstək sistemi inkişaf etmiş və çox işlər görülmüşdür, lakin bu günə qədər kifayət qədər səmərəli fəaliyyət göstərmir. Eyni zamanda xarici ölkələr kiçik biznesi stimullaşdırmaq üçün böyük təcrübə toplamışlar ki, biz onu mənimsəyə bilərik.

Dövlət sektoru da kiçik sahibkarlığın maliyyəyə çıxışı üçün əlverişli mühitin təmin edilməsində mühüm rol oynayır. Belə ki, maliyyə resurslarına çıxışı təşviq edən siyasət və qaydaların yaradılmasında aktivlik göstərilir. Məsələn, hökumət kiçik sahibkarlara kredit və digər maliyyə xidmətləri təklif etmək üçün mikromaliyyə təşkilatlarının (MMİ) qeydiyyatını və lisenziyalaşdırılmasını nəzərdə tutan qanunvericilik bazasını həyata keçirmişdir.

Bundan əlavə, hökumət kiçik sahibkarlığın maliyyəyə çıxışını asanlaşdırmaq üçün kredit zəmanəti sxemi də yaratmışdır. Sxem kiçik sahibkarların maliyyə institutlarından kredit əldə etmələri üçün girov təmin etmək məqsədi daşıyır. Hökumət, həmçinin, sahibkarlığın qeydiyyatı proseslərinin sadələşdirilməsi, vergilərin azaldılması və onlayn platformalar vasitəsilə məlumatlara çıxışın genişləndirilməsi yolu ilə sahibkarlıq mühitinin yaxşılaşdırılması üzərində işləyir.

Araşdırmalar göstərir ki, kiçik müəssisələr üçün maliyyələşmə çətinliyini azaltmaq və aradan qaldırmaq dövlət müdaxiləsi olmadan qeyri-mümkündür. Bu heç də büdcə vəsaitinin istənilən sahibkarın istifadəsinə yönəldilməsi kimi başa düşülməməlidir. Digər tərəfdən heç də hər bir mikro firmanın kiçik, orta və iri müəssisəyə çevrilməsi vacib deyil. Amma inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, ilkin maliyyə kapitalı – kiçik müəssisənin ölçülərinin genişləndirilməsinin ən yaxşı şərtlərindən biridir. Daxili investisiyanın perspektiv sahibkarlığa cəlb edilməsi milli iqtisadiyyatın optimal strukturunun, kiçik, orta və iri

DOI: https://doi.org/10.36719/2023/VI

müəssisələrin effektiv nisbətinin təminatçısıdır. Bu məsələ dövlətin birbaşa maliyyə dəstəyi yolu ilə yanaşı, həm də sərbəst kapitalın kiçik və orta sahibkarlığa yönəldilməsinin mexanizminin işlənib hazırlanması yolu ilə öz həllini dövlət səviyyəsində tapmış olur.

Mikromaliyyə təşkilatları, həmçinin, kiçik sahibkarları yanğın, oğurluq və ya digər risklər nəticəsində yaranan itkilərdən qoruyan mikro sığorta kimi məhsullar hazırlayıblar. Bundan əlavə, bəzi özəl sektor oyunçuları kiçik sahibkarlara maliyyə idarəçiliyi, marketinq və digər biznes bacarıqları üzrə texniki yardım və təlimlər göstərmək üçün beynəlxalq təşkilatlarla əməkdaşlıq ediblər.

Hökumət bankların məhdud imkanları olan ucqar ərazilərdə kiçik sahibkarlara kredit vermək üçün mikromaliyyə təşkilatları ilə əməkdaşlıq edir. Tərəfdaşlıq mikromaliyyə təşkilatlarına kredit vermə təcrübələrini və risklərin idarə edilməsini təkmilləşdirmək üçün texniki yardım və təlimlərin verilməsini nəzərdə tutur. Öz növbəsində mikromaliyyə təşkilatları kiçik sahibkarlara kredit ayırmışlar ki, bu da onlara öz fəaliyyət sahələrinə sərmayə qoymağa və iş yerlərinin açılmasına kömək etmişdir.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 46-49
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 46-49
DOI: https://doi.org/10.36719/2023/VI

**Xəyalə Verdixanova**
Bakı Dövlət Universiteti
magistrant
khayala.verdikhanova@mail.ru

# KOMMERSİYA BANKLARININ KREDİT RİSKİNİN İDARƏ EDİLMƏSİ SİSTEMİ

**Açar sözlər:** *Kommersiya bankları, kredit, kredit riski, risk idare edilməsi*

***Keywords:*** *Commercial banks, credit, credit risk, risk management*

Kommersiya banklarının üzərinə düşən ən mühüm risklərdən biri kredit riskidir. Kredit riskini öz üzərinə götürmədən və kredit riskini idarə etmədən bankların bank fəaliyyəti ilə məşğul olması mümkün deyil. Kommersiya bankçılığında riskləri effektiv idarə etmək üçün riskləri müəyyən etmək, riskləri ölçmək, lazımi tətbiqlərə başlamaq və təqib qiymətləndirmə mərhələlərini yerinə yetirmək lazımdır. Bu işin məqsədi daha az inkişaf etmiş iqtisadiyyatda kommersiya banklarının (KB) kredit risklərinin idarə edilməsi (CRM) sisteminin komponentlərinin başa düşülməsində istifadə oluna bilən ödənilməmiş kreditlər nəticəsində yaranan çətinlikləri azaltmaq üçün strategiyaları genişləndirməkdir. Bu, kredit idarəçiliyi ilə məşğul olan MB-lərdən və əsas rəhbər vəzifəli şəxslərin həm ilkin (müsahibələr), həm də ikinci dərəcəli (müxtəlif müvafiq sənədlər) məlumatlarından istifadə etməklə həyata keçirilmişdir.

**Kredit dedikdə nə nəzərdə tutulur?**

Kredit termini latınca "inanır" deməkdir. Bu "inanmaq" bir tərəfin digər tərəfə resurs və ya pul təklif etməsinə icazə verən etimaddır və bu yolla ikinci tərəf dərhal və ya birinci tərəfə

DOI: https://doi.org/10.36719/2023/VI

kompensasiya verməyin, bu, ikinci tərəfə borc doğurur, lakin sonradan həmin resursları və ya bərabər dəyərli və ya artıq olan əşyaları qaytarmaq və ya qaytarmaq razılaşması ilə kredit borcalana dəyərli bir şey almağa icazə verən və borc verənə daha sonra, adətən faizlə kompensasiya verməyə razılaşan müqavilədir. Tərəfindən müəyyən edildiyi kimi, verilən resurslar ya maliyyə ola bilər (məsələn, kreditlər), ya da mal və ya xidmətlər ola bilər (məsələn, istehlak krediti). Bununla belə, kredit kreditorun (borc verən adlanır) borcluya (borcalan kimi istinad edilir) verdiyi təxirə salınmış kompensasiyanın istənilən formasını əhatə edir (Konovalova, 2009: 85).

Kredit riskinin idarə edilməsinin əsas məqsədi ictimaiyyət tərəfindən qəbul edilən təsirlə bağlı risklərin təsirlərini azaltmaqdır. Adətən kreditlər bankların kredit riskinin əsas və ən aydın mənbəyidir. Bununla belə, bankın fəaliyyəti boyunca mövcud olan digər kredit riski mənbələri də mövcuddur; o cümlədən bank kitabçasında və balansda və ya balansdan kənarda görünə bilən ticarət kitabçasında indiki vaxtda kommersiya bankları kifayət qədər yüksək kredit riski səviyyələrinə daha çox meyllidirlər. Bu maliyyə mexanizmlərinə valyuta əməliyyatları, banklararası əməliyyatlar, istiqrazlar, ticarətin maliyyələşdirilməsi, səhmlər, svoplar və s. daxildir. Risklərin idarə edilməsi potensial təhlükəni minimuma endirmək və ya qarşısını almaq üçün şəxs, işçi heyəti və təşkilat üçün mövcud olan bütün vasitələri əhatə edir. Kreditin düzgün saxlanmasını və idarə olunmasını təmin etmək üçün kredit nəzarəti qrupunun yaradılması rəhbərliyin vəzifəsidir. Bir təşkilatın əsas funksiyalarından birinin risklərin idarə edilməsinə yönəldilməli olduğunu yenidən sayaq.

Riskin idarə edilməsi, riskin müəyyənləşdirilməsi, ölçülməsi, toplanması, planlaşdırılması və idarə edilməsini, habelə riskin monitorinqini əhatə edir. Firmanın ümumi kredit riskinə məruz qalmasının ölçülməsi üçün prosedurlar, eləcə də

DOI: https://doi.org/10.36719/2023/VI

ciddi daxili reytinq sistemi adekvat olmalıdır. Kredit riskinin effektiv idarə edilməsi uyğun mühitin yaradılmasını nəzərdə tutur; sağlam kredit verilməsi prosesi altında fəaliyyət göstərir; monitorinq prosesini və kredit riski üzərində qənaətbəxş nəzarəti əhatə edən müvafiq kredit administrasiyasının saxlanmasıdır. Bunu nəzərə alaraq, təlimatlar bütün təşkilatda yaxşı çatdırılmalıdır və kredit riskinin idarə edilməsi ilə məşğul olan hər kəs onları başa düşməyə borcludur. Bu, bank təşkilatının maraqlarına uyğun olaraq həmin təlimatların daha yaxşı tətbiqini gücləndirəcək. Effektiv sistem borcalanlar tərəfindən kreditin ödənilməsinin vacib olmasını təmin edir və bununla da bankın uzunmüddətli uğurunu artırmaq üçün kredit itkilərinin həcmini azaldır. Borcalanların yoxlanılması, ümumiyyətlə, həyata keçirilən strateji fəaliyyətdir (Haciyev, 2020: 35).

Kredit riskinin müəyyən edilməsi mərhələsində sözügedən riskin yaratdığı ciddilik dərəcəsini müəyyən etmək üçün bank tərəfindən qəbul edilmiş risk faktoru təhlili çərçivəsində potensial risk onun kəmiyyət və keyfiyyət parametrləri baxımından qiymətləndirilir. Potensial kredit riskinin identifikasiyası mərhələsində istifadə olunan müxtəlif idarəetmə üsulları toplusu nəticəsində müəyyən edilmiş riskin idarə olunmasının nəticələrini də proqnozlaşdırmaq olar. Beləliklə, müəyyən edilmiş meyarlara uyğun olaraq gələcəkdə istifadə olunacaq ən yaxşı metodlar toplusunu seçmək imkanı əldə etmək üçün müxtəlif risklərin idarə edilməsi üsulları dəstlərini müqayisə etmək imkanı əldə edilir. Potensial kredit riskinin nəticələrini onların təsirinin miqyası və baş vermə ehtimalı baxımından qiymətləndirmək lazımdır. Kredit riskinin idarə edilməsinin birinci mərhələsində müəyyən edilmiş kredit riskləri aşağıdakı müvəqqəti parametrlərə görə qiymətləndirilməlidir: keçmiş məlumatlar, indiki məlumatlar və proqnozlaşdırılan gələcək məlumatlar. Potensial kredit

DOI: https://doi.org/10.36719/2023/VI

riskinin müəyyən edilməsi və qiymətləndirilməsi nəticəsində kredit riskinin toplusu barədə qərar qəbul etmək lazımdır (Bolgün, Akçay, 2005: 101).

Bank işi əsasən risk götürməyə əsaslanan sistemə əsaslanır. Fərdlərdən və qurumlardan toplanan vəsaitlər fərdi və ya institusional investorlar tərəfindən istifadə edilərkən, risk faktoru hər zaman ön plandadır. Kredit klassik bankçılığın əsas funksiyalarından biri olduğundan kredit riski bank işində ilk müəyyən edilmiş riskdir. Kredit riski aktivlərin keyfiyyəti ilə tərs mütənasibdir; Aktivin keyfiyyəti gəlirliliyin və borc götürülmüş vəsaitlərin qaytarılmasının göstəricisidir. Son illərdə kredit riskinin ölçülməsi üçün modellərdə əhəmiyyətli inkişaflar olmuşdur. Kredit riskinin idarə edilməsinin məqsədi ən əlverişli şərtlərlə verilmiş kreditlərdən bankın gözlənilən gəlirini maksimuma çatdırmaqdır. Bu məqsədlə banklar bir-bir verdikləri kreditlərin risklərini nəzərə almaqla yanaşı, bütün kredit portfellərinə də birlikdə nəzarət edəcəklər.

## Ədəbiyyat

1. Konovalova, N., (2009). Kommersiya banklarında kredit riskinin qiymətləndirilməsi problemləri, “Journal of Business Management”, s.85.
2. Haciyev, Y. (2020). Maliyyə iqtisadiyyatı’’. Bakı, s.35.
3. Bolgün, K. E., Akçay, M. B. (2005). Risklərin İdarə Edilməsi. 101 s.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 50-51
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 50-51
DOI: https://doi.org/10.36719/2023/VI

**Aygün Verdiyeva**
Xəzər Universiteti
averdiyeva@khazar.org

# TƏHSİLDƏ QİYMƏTLƏNDİRMƏ VƏ ONUN SƏCİYYƏSİ

***Açar sözlər:*** *təhsil, qiymətləndirmə, təlim prosesi, ali təhsil sistemi, keyfiyyət*

***Keywords:*** *education, assessment, learning process, higher education system, quality*

Təhsildə qiymətləndirmə həmişə təlim prosesini müşayiət edib, bu gün də onun ayrılmaz tərkib hissəsini təşkil edir. Qiymətləndirmə təkcə təhsil alanların hazırlıq səviyyəsini üzə çıxarıb dəyərləndirməklə məhdudlaşmayıb, təlim prosesi və onun nəticələrinin keyfiyyətini aşkara çıxarmağa, inkişaf etdirməyə, lazımi korreksiya işi aparmağa xidmət edən bütöv bir sistem kimi çıxış edir.

Qiymətləndirmə sistemini yaxşı dərk etmək və düzgün tətbiq etmək üçün, hər şeydən əvvəl, onun mahiyyətini, məzmununu, təlim prosesindəki rolunu aydınlaşdırmaq lazımdır.

Qiymətləndirmə dedikdə hər hansı obyekti və ya prosesi onun dəyəri, səviyyəsi, keyfiyyəti baxımından səciyyələndirmək, dəyərləndirmək başa düşülür. Başqa sözlə, qiymətləndirmə əşya və prosesin keyfiyyətini, səviyyəsini müəyyənləşdirmək, ölçmək deməkdir. Əşya və proseslərin keyfiyyət göstəriciləri müxtəlif olduğu üçün onları eyni meyarlarla ölçmək olmaz. Onların hər birinin özlərinə məxsus göstəricilərini, meyarlarını bilmək və bu əsasda da onları ölçmək, qiymətləndirmək lazımdır. Təlimdə də belədir: qiymətləndirilən sahə, proses və fənlərdən asılı olaraq

DOI: https://doi.org/10.36719/2023/VI

keyfiyyət göstəricilərini müəyyənləşdirmək və bu göstəricilər əsasında onların dərəcəsini, səviyyəsini düzgün ölçmək və qiymətləndirmək vacibdir.

Azərbaycan Respublikasının Konstitusiyası, “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamları, Azərbaycan Respublikası Təhsil Nazirliyinin əmrləri, Kollegiyasının qərarları və ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi ali təhsil müəssisələrinin idarə edilməsini həyata keçirir. Ali təhsil müəssisələri publik hüquqi şəxs statusu almaqla idarəetmə axtarışındadırlar. Prezidentin 2009-cu il 22 may tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” qiymətləndirmə proseslərinə başlanmışdır.

Təhlillərin əsasında qeyd etmək olar ki, təhsil siyasəti dövlətin ümummilli marağını əks etdirərək onu ictimaiyyətə təqdim etməklə yanaşı, dünyanın inkişaf tendensiyalarını nəzərə alıb təhsil sistemində aşağıdakı dəyişikliklərin aparılmasını zəruri bir vəzifə kimi qarşıya qoyur.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 52-55
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 52-55
DOI: https://doi.org/10.36719/2023/VI

**Elza Məmiyeva**
Bakı Slavyan Universiteti
bayramova_elza@mail.ru

# CON LOOKUN BAXIŞLARINA GÖRƏ "DEMOKRATİYA" İDARƏETMƏ FORMASININ MAHİYYƏTİ

***Açar sözlər:*** *demokratiya, idarəetmə, dövlət idarəçiliyi, bərabərlik, liberalizm*

*Keywords: democracy, governance, public administration, equality, liberalism*

Cəmiyyətdə varlı olmayan və azad insanlar çoxluq təşkil edib hakimiyyəti ələ keçirdikdə idarəetmə forması demokratiyaya çevrilir. Aristotelin fikrincə, demokratiya ilə oliqarxiyanı ayıran əsas meyar var-dövlət və ya yoxsulluq meyarı olsa da bu məsələdə tez-tez səhvlərə yol verilir və xalqın dominant olduğu yerdə demokratiyanın, azlığın hökmran olduğu yerdə də oliqarxiyanın mövcudluğu qəbul edilir. Aristotel bu fikri tənqid edərək hesab edir ki, hakimiyyətdə olan zənginlər digərlərinə görə sayca üstünlük təşkil etsə belə, yenə də bu idarəetmə demokratiya olaraq qəbul edilə bilməz. Demokratiya bərabərlik prinsipinə əsaslanır. Qanunda kasıbın varlıdan və ya bir təbəqənin digəri üzərində heç bir üstünlüyü olmadığı, hər ikisinin də cəmiyyətdə bərabər olduğu qeyd olunmuşdur. Amma xalq daha böyük sinif olduğundan və çoxluq qərar verdiyi üçün görünən bərabərsizlik onun demokratiya olmasına mane olmur. Demokratiyalar mülkiyyət tələbinin olub-olmamasına və konstitusiyanın asılı olmasına görə təsnif edilə bilər:

1. Vəzifəyə təyin olunmaq üçün aşağı həddə müəyyən edilmiş və hər zaman nəzarət edilən mülk varlığı tələb olunur.

DOI: https://doi.org/10.36719/2023/VI

Tələb olunan həddə mülkiyyəti olanlar vəzifəyə seçilə bilərlər, lakin mülk sayı bu həddən az olduqda seçilmək hüququnu itirirlər.

2. Anadangəlmə əlilliyi olmayan bütün vətəndaşlar seçilmək hüququna malikdir, lakin qanun hər şeydən üstündür.

3. Hər kəsin seçilmək hüququ var, yalnız vətəndaş olmaq şərti mövcuddur, amma yenə də qanun hər şeydən üstündür.

4. Vətəndaş olmaq şərtiylə hər kəsin seçilmək hüququ var, amma üstünlük təşkil edən qanun deyil, xalqdır. Bu, xalqın iradəsinin qanunun müddəalarından üstün olduğu vəziyyətdə baş verir. Bu vəziyyəti məşhur siyasi liderlər, yəni demaqoqlar yaradır.

Dövlətlər demokratik qanunlarla idarə olunduqda doğru insanlar hakimiyyətə başçılıq edirlər. Halbuki, qanunların hökm sürmədiyi yerdə demaqoqlar yaranır. Xalq bir çoxlarından ibarət tək hökmdar kimi monarxlara çevrilir. Monarxik xalq qanunun nəzarətində olmadığı üçün o, mütləq hakimiyyətə çatmağa can atır, despot kimi ona yaltaqlananları ucaldır və hörmət edir. Yəni bu formada bir idarəetmənin demokratiyalar arasındakı yeri tiranlığın monarxiyalar arasındakı yeri ilə eynidir.

C. Look digərlərindən fərqli olaraq liberal dövlət anlayışını müdafiə edirdi. O, həmçinin, liberal dövlət və hökumət nəzəriyyəsinin banisi hesab olunur. Looka görə, insan tək yaşamaq üçün yaradılmayıb və o, cəmiyyətdə yaşamalıdır. İlk cəmiyyətin yaranması kişi-qadın bərabərliyindən başlamış, daha sonra ata-ana və övladlardan ibarət cəmiyyət, ardınca ağalar və xidmətçilərdən əmələ gələn cəmiyyətlərlə davam etmişdir. Lakin bu cəmiyyətlər həm məqsədlərinə, həm də üzvlərinin qarşılıqlı vəzifələrinə görə siyasi cəmiyyətlərdən fərqlənirlər. Look siyasi cəmiyyətlərin quruluşunu başa düşmək və mənbəyini açıqlamaq üçün ilk növbədə insanların təbii halda necə yaşadığını izah etməklə başlayır.

DOI: https://doi.org/10.36719/2023/VI

İnsanlar təbii halda tam olaraq azad və bərabər şəraitdə yaşayırlar. Başqalarından icazə almadan, başqasının iradəsinə tabe olmadan sahib olduqları dəyərlərdən istədikləri kimi istifadə etmə və sərbəst davranma haqqına sahibdirlər. Yəni heç kimin digəri üzərində heç bir səlahiyyəti və ya üstünlüyü yoxdur və təbii şəraitdə insanların bu həyatı qarşılıqlı yardım və sevgi prinsiplərinə əsaslanır. Bu dövrdə insanlar sərbəst olaraq hərəkət etmə imkanına malik olsa da yenə də insanların diqqət etməli olduğu təbii hüquq qanunları da mövcud olmuşdur. İnsanların öz həyatına qəsd etmək azadlığı olmadığı kimi, başqasının həyatına son qoymaq azadlığı da yoxdur. Bu şəraitdə insanlar malından istədiyi kimi istifadə edə bilər, lakin başqasının malına zərər vurmaqda, əlindən almaqda sərbəst deyillər. İnsanların itaət etməli olduğu təbii qanun, yəni ağıl bütün insanların azad və bərabər olduğu bir yerdə hər kəsə bir-birinin canına, azadlığına və malına hörmət etməyi əmr edir.

İnsanların üstündə zərurət yarandıqda, cəzalandıran bir səlahiyyətli orqan və ya güc olmadıqda, cinayətkarla cəzalandırmaq hüququndan istifadə edənlər müəyyən mənada qarşı-qarşıya qalırlar. Müsbət cəhətləri olduğu qədər mənfi cəhətləri də olan belə bir cəmiyyət insanların arasındakı ixtilafları həll edə biləcək bir iqtidarın qurulmasıyla siyasi bir cəmiyyətə çevrilir və cəzalandırma hüququ da siyasi hakimiyyətin əlinə keçir. Con Looka görə, insanlar, həmçinin, öz canlarını qorumaq, əmin-amanlıq içində dinc və rahat yaşamaq, mallarından rahat istifadə etmək, təhlükələrdən daha yaxşı qorunmaq üçün öz iradələri ilə siyasi cəmiyyət və ya hökumət qurmuşdur. Siyasi cəmiyyət hər kəsin razılığı ilə qurulsa da bu cəmiyyəti yönləndirən güc çoxluğun iradəsi ilə formalaşacaqdır. Cəmiyyətə könüllü qoşulan hər kəs çoxluğun qərarına tabe olmağa razı olmalıdır.

C. Looka görə, idarəetmə formaları qanunvericilik hakimiyyətini əlində tutan şəxs və ya şəxslərə uyğun olaraq

DOI: https://doi.org/10.36719/2023/VI

müəyyən edilir. Siyasi hakimiyyətin bərqərar olmasını təmin edən cəmiyyət öz qanunlarını və qanunları həyata keçirəcək məmurları müəyyən edirsə, bu idarəetmə forması demokratiya adlanır. Look qanunvericilik hakimiyyətini cəmiyyəti və cəmiyyətdə yaşayanların sərvətlərini qorumaq üçün dövlət imkanlarından necə istifadə edilməsini müəyyən edən güc kimi tərif edir.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 56-58
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 56-58
DOI: https://doi.org/10.36719/2023/VI

**Lalə Nəcəfli**
Azərbaycan Dövlət İqtisad Universiteti
lale.tagizade@inbox.ru

# YÜNGÜL SƏNAYENİN İQLİM DƏYİŞMƏLƏRİNƏ TƏSİRİ VƏ ONUN MİNİMALLAŞDIRILMASI İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *moda, iqlim dəyişikliyi, geyim sənayesi, kürk, ətraf mühit*

***Keywords:*** *fashion, climate change, clothing industry, fur, environment*

İnkişaf etmiş ölkələrin sənayeləşmə təcrübəsi göstərir ki, məhsul istehsalının artırılması, sahibkarlıq fəaliyyətinin gücləndirilməsi, yeni və çoxlu sahibkarlıq subyektlərinin yaradılmasının ən əlverişli yolu yeyinti və yüngül sənaye sahələrinin inkişaf etdirilməsidir. Çünki adıçəkilən sənaye sahələrinin istehsal etdiyi məhsul gündəlik tələbatın ödənilməsi üçün nəzərdə tutulur, buna görə də həmin sənaye müəssisələrinin fəaliyyət göstərməsi çətin deyil.

Antropoloji faktorların neqativ təsiri nəticəsində ətraf mühitin çirklənməsi istiləşməyə səbəb olmuşdur. Əsas təhlükə atmosferdə texnogen qazların artmasıdır. Atmosferdə $CO_2$-nin miqdarı 1880-ci ildə 0,029 % olduğu halda, hazırda 0,03456 %-ə çatmışdır. Karbon qazının atmosferdə normadan çox artması "parnik effekti" ilə nəticələnə bilər.

DOI: https://doi.org/10.36719/2023/VI




İqlim dəyişikliyinin həll edilməsi zəruriliyi artdıqca sənaye sektorları karbon emissiyalarını azaltmağa çalışırlar. Moda iqlim dəyişikliyinə böyük töhfə verir. Mak Kinseyin araşdırması göstərir ki, bu sektor 2018-ci ildə təxminən 2,1 milyard metrik ton istixana qazı emissiyasına cavabdeh idi, bu da dünya miqdarının təxminən yüzdə dördüdür. Bunu müəyyən etmək üçün moda sənayesi Fransa, Almaniya və İngiltərənin bütün iqtisadiyyatlarının birləşdirdiyi ildə təxminən eyni miqdarda istixana qazı istehsal edir.

Tullantıların azaldılması səylərinə baxmayaraq, sənaye Hökumətlərarası İqlim Dəyişikliyi Paneli tərəfindən müəyyən edilmiş və 2015-ci il Paris razılaşmasında təsdiqlənmiş iqlim dəyişikliyini azaltmaq üçün 1,5 dərəcə yolunu aşacaq bir trayektoriyadır. Bu yola çatmaq üçün dəbin istixana emissiyalarını 2030-cu ilədək 1,1 milyard metrik ton $CO_2$ ekvivalenti səviyyəsinə endirməsi lazımdır. Ancaq COVID-19-un ehtimal olunan təsirini nəzərə alaraq düzəldilmiş böyümə hesablamalarımız sənayenin artıq çəkilməyə başladığını göstərir.

DOI: https://doi.org/10.36719/2023/VI

2030-cu ildə əlavə azalma tədbirləri görmədiyi təqdirdə 2,1 milyard metrik ton $CO_2$ ekvivalentində emissiya ilə hədəfini təxminən ikiqat artırdı.




Azaltma xərclərini hesablamaq üçün müəyyən bir karbonlaşdırma qolunun tətbiq edilməsinin xalis illik dəyərini təxmin etdik və bu dəyəri ildə bir azalmış $CO_2$ tonu üçün bir vahid nailiyyətə çatmaq üçün ildə əldə edilən azalma məbləğinə böldük. Bu hesablama əlavə illik əməliyyat xərclərini və bir qolu əvəz etmək üçün potensial xərc qənaətini əhatə edir, lakin əməliyyat xərclərini, subsidiyaları, açıq $CO_2$ xərclərini, vergiləri və iqtisadiyyata təsirini istisna edir. Mütəxəssislərlə tapıntılarımızı stress testindən keçirdik, azalma xərcləri əyrisi qurduq və müxtəlif maraqlı tərəflərin dəyər zəncirində karbon azaldılmasına qatqılarını təyin etdik.

Yüngül sənayenin inkişafı müəyyən mənada təbiətə və bunun timsalında heyvanlara ziyan vurur. Hər il minlərlə flora və fauna nümunəsinin nəsli kəsilir. Bu yöndə aparılan tədqiqatlar və görülən tədbirlərin miqdarı əsaslı şəkildə artırılmalıdır. Planetimizin sağlamlığı naminə bütün dünya hökumətləri və şirkətləri əl-ələ verib sağlam ekoloji sənayeyə dəstək verməlidirlər.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 59-61
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 59-61
DOI: https://doi.org/10.36719/2023/VI

**Pərvin Kərimova**
Xəzər Universiteti
pkerimova@khazar.org

# ŞƏXSİYYƏTLƏRARASI ÜNSİYYƏT VƏ ONUN MAHİYYƏTİ

***Açar sözlər:*** *şəxsiyyətlərarası münasibət, cəmiyyət, "Mən-Digəri" problemi, kommunikasiya, mədəniyyət*

***Keywords:*** *interpersonal relationship, society, "I-other" problem, communication, culture*

Şəxsiyyətlərarası ünsiyyətin öz tarixi vardır. Müxtəlif dövrlərin bir çox mütəfəkkirləri bütövlükdə mühüm ünsiyyət problemini müəyyən edərək onun insan həyatı, cəmiyyət, mədəniyyət üçün dəyərini və əhəmiyyətini qeyd ediblər. Həqiqətən də tarixi perspektivdə ünsiyyət keçmiş və indi ilə yanaşı, şüurun xüsusiyyətləri və insan cəmiyyətinin fəaliyyət qanunları, həmçinin mədəni ənənələrin spesifikası ilə gələcək qazanır.

XX əsrin dünya fəlsəfəsində ünsiyyət mövzusu "Mən–Digəri" problemi, Digərinin dərk edilməsi, Mənin Digəri ilə qarşılıqlı əlaqəsi prosesində meydana çıxan etikoestetik ünsiyyət üzrə tədqiqatlarda özünəməxsus davam imkanı qazandı. XIX əsrdən başlayaraq rus dini-fəlsəfi məktəbi (S.N. Bulqakov, L.P. Karsavin, İ.A. İlyin, V.V. Rozanov, Vl. S. Solovyev, P. Florenski və s.) və qərb fəlsəfəsinin nümayəndələri (M. Buber, E. Levinas, Q. Marsel, M. Haydeqqer və s.) tərəfindən müxtəlif paradiqmaların fəlsəfi konstruksiyaları işlənib hazırlanmışdır ki, burada ünsiyyət problemi dəyər yanaşması nöqteyi-nəzərindən nəzərdən keçirilir, dialoq isə (daxili və xarici) şəxsiyyətlərarası ünsiyyətin əsas şərti kimi qəbul edilir. Şəxsiyyətlərarası

DOI: https://doi.org/10.36719/2023/VI

ünsiyyət problemi müasir çoxqütblü dünyada aktuallıq və əhəmiyyətlilik qazanır, hansı ki, burada öz mədəni identikliyini saxlamaq daha çox Digərinin daxili dünyasını anlamaq və qəbul etmək, özünün və onun bənzərsizlik hüququnu təsdiq etmək bacarığından asılıdır. Fəlsəfə, psixologiya, sosial və digər elmi istiqamətlərin problemlərinin məcrasında duran tədqiqatın mərkəzində yerləşərək ünsiyyət problemi müasir mədəniyyətdə baş verən deformasiya prosesləri nöqteyi-nəzərindən xüsusi nəzərdən keçirilmə tələb edir.

Hər bir tədqiqatçı "insan ünsiyyəti" adlanan sahədə nəzəri aydınlıq olmadan keçinə bilməz. Ona görə istənilən elmi tədqiqatın perspektivləri təsviri-konstatasiya səviyyədə yerləşərək, həmçinin, nəzəri bazisin mükəmməlliyini, anlayış aparatının dəqiqliyini tələb edir. Bu baxımdan, əvvəlcə qeyd edilən problemin öyrənilməsindəki elmi istiqamətləri ayıraq, sonra isə mətndə istifadə edilən təriflərin mənasını açıqlayacağıq. Müasir alimlər tərəfindən ünsiyyət problemi müxtəlif nöqteyi-nəzərdən araşdırılır: ünsiyyət insanın mənəvi dəyərlər, mənəvi ənənələr ilə ümumiləşdirilməsi prosesi kimi; şəxsiyyətin daxili, mənəvi mədəniyyətinin, onun dünyaya münasibətinin və dünyanı dərk etməsinin formalaşması göstəricisi; dil kommunikasiyasının uğurluluğu; insan şəxsiyyətinin strukturuna təsirlər, onun həyati mənaları və dəyərləri ilə spekulyasiya və s.

Bir neçə ən aktual istiqamətləri də fərqləndirmək olar. Bir çox əsərlərdə bunlar "şəxsiyyət – cəmiyyət", "böhran – mədəniyyət", "ünsiyyət – kommunikasiya" anlayışlarıdır. Onlar ünsiyyət prosesinin mürəkkəbliyi və çoxölçülülüyünün müxtəlif nöqteyi-nəzərlərdən nəzərdən keçirilməsi zamanı istifadə edilir: ünsiyyət problemi və müasir idrak nəzəriyyəsi; ünsiyyət probleminin Rusiya tarixində sivilizasiya və kulturoloji trayektoriyaların kəsişməsi nöqteyi-nəzərindən təhlili; mədəniyyət koordinatlarında ünsiyyət prosesi və

**DOI: https://doi.org/10.36719/2023/VI**

"özününkü-yad" anlayışları; "mən" və "digəri" əlaqələrinin fəlsəfi refleksiya, psixoloji və kulturoloji təhlil nöqteyi-nəzərdən keçirilməsi. Qeyd etmək lazımdır ki, mənəvi və cismani strukturların vahidliyində insan subyektivliyinin tədqiqatı mövzusu insanın dəyərləri, tarixi baxımdan özünü anlaması və özünüdərkindən ayrılıqda mümkün deyildir.

DOI: https://doi.org/10.36719/2023/VI

**Zəhra Salahova**
Lənkəran Dövlət Universiteti
bakalavr
salahovazehra95@gmail.com
**Fərid Xankişiyev**
Lənkəran Dövlət Universiteti
ferid_khan@mail.ru

# THE ROLE OF THE OIL AND GAS SECTOR IN ECONOMIC DEVELOPMENT

***Keywords:*** *oil and gas, economy, research, innovation, energy*
***Açar sözlər:*** *neft və qaz, iqtisadiyyat, tədqiqat, innovasiya, energetika*

The oil and gas sector plays a crucial role in global innovation and the economy in several ways.

1. Technological Advancements: The industry invests heavily in research and development to improve exploration, extraction, and refining processes. This leads to increased efficiency, cost reduction, and the discovery of new reserves. Advancements in drilling techniques, such as horizontal drilling and hydraulic fracturing, have revolutionized the industry and unlocked previously inaccessible resources.

2. Job Creation and Economic Growth: The oil and gas sector is a major source of employment, providing jobs in various sectors, including engineering, manufacturing, transportation, and services. It generates substantial tax revenues for governments, which can be allocated towards public infrastructure, education, and healthcare. Additionally, the sector attracts investments and fosters the development of related industries like petrochemicals and plastics.

DOI: https://doi.org/10.36719/2023/VI

3. Global Trade: Oil is a vital commodity, and its production, refining, and distribution create a complex web of international trade relationships. Countries rich in oil and gas reserves often become major exporters, contributing to their economic development and strengthening their geopolitical influence.

4. Energy Transition and Environmental Sustainability: While fossil fuels have environmental challenges, many companies in the industry are investing in renewable energy sources and exploring ways to reduce their carbon footprint. This commitment to sustainability encourages the development of cleaner technologies and contributes to the global transition towards a more sustainable energy mix.

Overall, the oil and gas sector's contributions to innovation, the economy, trade, and energy transition are significant. It remains an important player in shaping the global landscape while adapting to the changing needs of society.

Firstly, the oil and gas industry has been a driving force behind technological advancements. Companies in this sector invest heavily in research and development to improve exploration, extraction, and refining processes. These innovations lead to increased efficiency, cost reduction, and the discovery of new reserves. Moreover, advancements in drilling techniques, such as horizontal drilling and hydraulic fracturing, have revolutionized the industry and unlocked previously inaccessible resources.

Secondly, the oil and gas sector significantly contributes to the global economy. It is a major source of employment, providing jobs in various sectors, including engineering, manufacturing, transportation, and services. The industry also generates substantial tax revenues for governments, which can be allocated towards public infrastructure, education, and healthcare. Additionally, the sector stimulates economic

DOI: https://doi.org/10.36719/2023/VI

growth by attracting investments and fostering the development of related industries like petrochemicals and plastics. Furthermore, the oil and gas industry has a significant impact on global trade. Oil is a vital commodity, and its production, refining, and distribution create a complex web of international trade relationships. Countries rich in oil and gas reserves often become major exporters, contributing to their economic development and strengthening their geopolitical influence.

Lastly, the oil and gas sector plays a role in energy transition and environmental sustainability. While fossil fuels have environmental challenges, many companies in the industry are investing in renewable energy sources and exploring ways to reduce their carbon footprint. This commitment to sustainability encourages the development of cleaner technologies and contributes to the global transition towards a more sustainable energy mix.

Overall, the oil and gas sector's contributions to innovation, the economy, trade, and energy transition are substantial. It remains an important player in shaping the global landscape while adapting to the changing needs of society.

VI ELMİ QAYNAQLAR Tezislər Toplusu / 65-67
VI Collection of Theses on SCIENTIFIC SOURCES / 65-67
DOI: https://doi.org/10.36719/2023/VI

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Nailə Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
mammadova.naila.1965@gmail.com

## QITIQOTU (XREN) - *ARMORACİA RUSTİCANA L.* BİTKİSİNİN FAYDALI XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *vitamin, əhəmiyyət, dərman bitkisi, yabanı bitki, fitonsid*

***Keywords:*** *vitamin, importance, medicinal plant, wild plant, phytoncide*

Qıtıqotu çoxillik bitkidir. Hündürlüyü 1,5 metrə qədər çatır. Gövdəsi dikdurandır, içi boşdur, üzərində xətlər keçir. Baş tərəfində haçalanır. Çiçəkləri ağ rənglidir, düzdür, çiçək qrupuna yığılıb. May ayından başlayaraq iyun ayına qədər çiçəkləyir. Bitkinin meyvələri oval, uzunsov paxladır.

Qıtıqotu torpağa tələbkar deyil, lakin kökün yaxşı inkişafı üçün onun münbit gillicəli və qumlucalı torpaqlara ehtiyacı vardır. Kifayət qədər nəmli, yaxşı işıqlanan yerlərə üstünlük verir. Kökümsovun hissələri ilə çoxalır. Azot gübrələrinin artıq istifadəsində köklər daha yaxşı budaqlanır. Bitkinin ikinci ilindən başlayaraq köklərini torpaqdan çıxartmaq olar. Bunu payızın axırında, yarpaqlar öləndən sonra və yaxud erkən yazda, yarpaqların əmələ gəlməsindən əvvəl etmək lazımdır.

Qıtıqotunun faydası hər birimizə məlumdur, özantibakterial xüsusiyyətləri ilə bitki fitonsidlərinə və efir yağlarına

**DOI: https://doi.org/10.36719/2023/VI**

borcludur, onlar zərərli mikroorqnizmləri məhv edir və insan orqanizmini infeksion xəstəliklərdən qoruya bilər.

Qıtıqotunun yarpaqları iri, oval formalıdır, uzun saplağı var, uzunsovdur, qıraqları diliklidir. Yarpaqlar orqanizmi toksinlərdən, şlak və duzlardan yaxşı təmizlənməsinə köməklik edir. Onlarda çox sayda karotin və vitaminlər olur. Yarpaqlardan çox asan müalicəvi cövhər hazırlamaq olar. Bir litrlik banka xırda doğranmış yarpaqlarla doldurulur, üzərinə su əlavə edilir və qapaqla kip bağlanılır. Qaranlıq yerdə iki həftə saxlanılır. İki həftədən sonra cövhər süzülür və yeməkdən qabaq bir xörək qaşığı qəbul edilir. Müalicə kursu 3 aya qədər uzadıla bilər. Belə cövhər burun axmasında, qaymorit xəstəliyinə kömək edir. Uzun qışdan sonra orqanizmi yaxşı möhkəmləndirir. Əzələ və bel ağrılarında xaricə istifadə edilir.

Müalicə məqsədi ilə qıtıqotunun kökləri daha çox istifadə edilir. Qıtıqotunun kökümsovunda çox miqdarda vitamin C, fitonsidlər, kükürd, efir yağları və acılığını təmin edən qlükozid sinergin var.

Bitkinin kökümsovu uzunsovdur, budaqlanandır və lətlidir. Bütün il ərzində bitkinin kökü tədarük edilir. Lakin bunu yaz aylarında, yarpaqların böyüməsindən əvvəl etmək daha yaxşı olar. Kökləri bel və ya yava vasitəsilə çıxarırlar.

Çıxarılandan sonra kökü torpaqdan təmizləyirlər, yuyub qurudurlar və qumla doldurulmuş yeşiklərdə saxlayırlar. Zirzəmidə kök yaza qədər saxlanıla bilər. Onun tərkibində karbohidrogenlər, yağlar, nişasta, mineral duzlar, askorbin turşusu, efir yağları, qətranlı və azotlu maddələr olur.

Bitkidən qan azlığında, sidik ifrazatının çətinliyində, xroniki revmatizm, podaqra və b. xəstəliklərin müalicəsində istifadə edilir. Sidik kisəsində olan daşların çıxarılmasında, bağırsağın işinin yaxşılaşdırılmasında, bir çox dəri xəstəliklərin müalicəsində istifadə edilir. Maddələr mübadiləsini normallaşdırır. Kökün cövhəri malyariya xəstəliyinin

**DOI: https://doi.org/10.36719/2023/VI**

müalicəsində istifadə edilir. Diş ağrısında, iltihablı yara və xoraların müalicəsində istifadə edilir. Kökün cövhəri ilə üz yuyulsa üzdə olan ləkələr, çillər gedər. Sıyıq şəklinə qədər xırdalanmış kökdən kompress hazırlanıb əzələ ağrılarında, bronxial astmada, revmatizm, artrit xəstəliklərində istifadə olunur.

Xalq təbabətində mədə-bağırsaq, soyuqdəymə xəstəliklərinin müalicəsində istifadə olunur. Qıtıqotunun xeyirli xüsusiyyətləri çoxdur, onunla bərabər qidalı və şəfalı ədviyyatdır, bu xüsusiyyətlərinə görə sortları əkilib becərilir, əsasən yazda əkilir, əkin materialını isə payızda istifadə edirlər.

Qıtıqotu soyutma ətin, xaşın, balığın hazırlanmasında əvəzolunmaz ədviyyatdır, onun yarpaqları tərəvəzlərin konservləşməsində istifadə edilir.

## İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Ağasəmid İsayev, Sevinc Sadiqova, İradə Nağıyeva, Salatın Bəxtiyarova**
İçməli suyun kimyəvi və epidemioloji təhlükəsizlik göstəriciləri və onların gigiyenik əsaslandırılmasına dair ........8
**Elçin Allahverdiyev**
Biznes fəaliyyətində vergi nəzarəti mexanizmlərinin təkmilləşdirilməsi ........................................................10
**Elmar Muradov**
Qlobal dünya iqtisadi mühitində transmilli korporasiyalar ........................................................15
**Həsən Musayev**
Turizm xidmətində audit nəzarətinin təşkili ...........................20
**Şamil Verdizadə**
İşğaldan azad olunmuş ərazilərdə kiçik və orta sahibkarlığın maliyyələşdirilməsi ..........................................25
**Əli Qasımlı**
Vergi potensialının müəyyən edilməsinin nəzəri aspektləri ........................................................................30
**Məhəmməd Muradlı**
Birgə müəssisələrdə maliyyə resurslarından istifadənin idarə edilməsi ........................................................................34
**Pərviz Qurbanzadə**
Sahibkarlıq fəaliyyətində vergi menecmentinin stimullaşdırma alətləri ...........................................................38
**Rifat Alməmmədov**
Kiçik sahibkarlıqda maliyyə vəsaitlərindən istifadənin səmərəliliyinin yüksəldilməsi ................................................42

**Xəyalə Verdixanova**
Kommersiya banklarının kredit riskinin idarə edilməsi sistemi ....................................................................46
**Aygün Verdiyeva**
Təhsildə qiymətləndirmə və onun səciyyəsi ............................50
**Elza Məmiyeva**
Con Lookun baxışlarına görə "demokratiya" idarəetmə formasının mahiyyəti ..............................................................52
**Lalə Nəcəfli**
Yüngül sənayenin iqlim dəyişmələrinə təsiri və onun minimallaşdırılması istiqamətləri .............................................56
**Pərvin Kərimova**
Şəxsiyyətlərarası ünsiyyət və onun mahiyyəti .........................59
**Zəhra Salahova, Fərid Xankişiyev**
The role of the oil and gas sector in economic development ..........................................................................62

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Nailə Məmmədova**
Qıtıqotu (xren) - A*rmoracia Rusticana L.* bitkisinin faydalı xüsusiyyətləri ..............................................................65

İmzalandı: 19.10.2023
Formatı: 60/84, 1/16
H/n həcmi: 4,5 ç.v.
Sifariş: 678

https://aem.az saytında çap olunub.
**Ünvan:** Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az